Gündəlik ictimai-siyasi qəzet

# XALQ QƏZETİ

№ 37 (29009) 15 fevral 2019-cu il, cümə

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

*Prezident İlham ƏLİYEV:*

## Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək



*Ölkəmizin uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına, ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

***❒ Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi yolu ilə iqtisadiyyatın şaxələndirilməsinə, əhalinin rifah halının yaxşılaşdırılmasına xüsusi önəm verən ölkə Prezidenti İlham Əliyev regionların sürətli inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşır, müntəzəm olaraq bölgələrə səfər edir. Həmin səfərlər çərçivəsində yerlərdə görülmüş işlərlə yaxından tanış olan dövlət başçısı sakinlərin də rəyini nəzərə alır, onları narahat edən məsələlərin həlli ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirir.***

Regionların inkişafına yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi mühüm təsir göstərir. Çünki bu istiqamətdə aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi tərəqqisinin göstəricilərindən biridir.

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 13-də Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun istifadəyə verilməsi də bunun bariz ifadəsidir. Bu yolun açılışı mərasimində regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildiyi, eyni zamanda, yolların tikintisi və yenidən qurulması işlərinin həcminin ildən-ilə artdığı bildirilib. Qeyd edilib ki, hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən, bu gün əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Yuxarıda vurğuladığımız kimi, bu tədbirlər, ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların rifahının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olduğunu nümayiş etdirir. Belə layihələrdən biri də sözügedən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisidir.

Mərasimdə həmin yolun 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirdiyi, tikintisinə isə dövlət büdcəsinin investisiya xərclərindən 14,6 milyon manat ayrıldığı xatırladılıb.

*(ardı 8-ci səhifədə)*

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Gəncə şəhərinə səfəri

## Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət

***❒ Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərinə gəliblər.***



Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Birinci vitse-prezidentə son illərdə şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.

Mehriban Əliyeva Regional İnkişaf İctimai Birliyinin nümayəndələri ilə görüşdü.

***AZƏRTAC***

## Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlər aşağıdakı məbləğlərdə müəyyən edilsin:

1.1. Doktorantura pilləsi üzrə:

elmlər doktoru hazırlığı üzrə doktorantlara - 300 manat

fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 180 manat

1.2. ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:

adlı təqaüd alan tələbələrə – 170 manat

magistratura səviyyəsi üzrə:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 145 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 120 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 80 manat

bakalavriat səviyyəsi üzrə:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 130 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 110 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 75 manat

1.3. orta ixtisas təhsili müəssisələrində:

akademik göstəriciləri 91-100 bal olan tələbələrə – 75 manat

akademik göstəriciləri 71-100 bal olan tələbələrə – 60 manat

akademik göstəriciləri 51-100 bal olan tələbələrə – 50 manat

1.4. Peşə təhsili müəssisələrinin tələbələrinə – 50 manat.

**2.** Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə bu Sərəncamın 1.2-ci və 1.3-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.

**3.** Bu Sərəncamın 1.1-ci və 1.4-cü bəndləri ilə müəyyən edilmiş təqaüdlər yalnız dövlət büdcəsinin vəsaiti hesabına təhsil alan doktorantlara və peşə təhsili müəssisələrinin tələbələrinə ödənilsin.

**4.** Müəyyən edilsin ki, təqaüdlərin ödənilməsi, doktorantura pilləsində, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçirilir.

**5.** "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsi üzrə tələbələrinə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 988; 2015, № 11, maddə 1339; 2016, № 1, maddə 134; 2017, № 5, maddə 934; 2018, № 5, maddə 1022), 1-ci, 1-1-ci və 2-ci hissələri ləğv edilsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**7.** Bu sərəncam 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 579; 2004, № 9, maddə 684; 2006, № 12, maddə 1056; 2008, № 9, maddə 796; 2013, № 9, maddə 1049; 2018, № 5, maddə 935) 1-ci hissəsində "185 (yüz səksən beş)" sözləri "210 (iki yüz on)" sözləri ilə əvəz edilsin.

**2.** Bu Fərman 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**



**Azərbaycan gəncliyi ölkəmizin ümumi inkişafına böyük töhfələr verir**

▸▸2



**Birinci vitse-prezident Mehriban Əliyeva Gəncənin "Xan bağı"nda sakinlərlə görüşüb**

▸▸5-6



**Peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir**

▸▸8




**Rouz QETTEMÜLLER: NATO Avropada yeni nüvə raketləri yerləşdirməyəcək**

▸▸16

## Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

**Hörmətli cənab Prezident!**

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Serbiya arasındakı strateji tərəfdaşlıq münasibətləri, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına sülh və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2019-cu il**

## M.Ə.Məmməd-Quliyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mahmud Əhməd oğlu Məmməd-Quliyev 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## E.M.Hüseynovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Eyvaz Mövsüm oğlu Hüseynov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə **qərara alıram:**

**1.** Ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu ilin martın 1-dən 16000 (on altı min) vahid artırılsın və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** Bu Sərəncamın 1-ci hissəsi 2019-cu il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin noyabr ayında Sumqayıtın şəhər statusu almasının 70 illiyi tamam olur.

Sumqayıt yarandığı dövrdən etibarən müasir sənaye şəhərinə çevrilmək istiqamətində qazandığı uğurların miqyasını ildən-ilə genişləndirərək parlaq inkişaf yolu keçmişdir. Özünün iri müəssisələr şəbəkəsi və müvafiq infrastrukturunu formalaşdıran şəhər qısa müddət ərzində ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınmış, eyni zamanda, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir.

Sumqayıtın tarixinin ən əlamətdar səhifələri xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin diqqət və qayğısı sayəsində hələ ötən əsrin 70–80-ci illərində Sumqayıtda xüsusən neft və kimya sənayesinin sürətli inkişafı üçün geniş imkanlar açılmış, zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni-yeni istehsal sahələri istismara verilmişdir.

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra Sumqayıt şəhəri özünün sosial-iqtisadi yüksəliş salnaməsini zənginləşdirməkdə davam etmişdir. Müvəffəqiyyətlə gerçəkləşdirilən dövlət proqramları və infrastruktur layihələr çərçivəsində “Sumqayıt Texnologiyalar Parkı” və “Sumqayıt Kimya Sənaye Parkı”, həmçinin digər mühüm obyektlər qurulmuşdur. Şəhərin iqtisadi strukturuna daxil olan kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma və elektroenergetika, eləcə də yüngül sənaye sahələri qabaqcıl texnoloji avadanlıqla təchiz edilmişdir. Şəhər əhalisinin yaşayış səviyyəsi və həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Sumqayıt şəhəri elmin, təhsilin və mədəniyyətin ümumi tərəqqisi işinə bu gün də layiqli töhfələr bəxş edir. Sumqayıt Dövlət Universiteti artıq respublikanın nüfuzlu ali təhsil ocaqlarındandır. Sumqayıt Dövlət Dram Teatrının ölkədə teatr sənətinin inkişafında özünəməxsus xidmətləri vardır.

Davamlı yeniləşən Sumqayıtın hazırkı sosial-iqtisadi mənzərəsi və elmi-mədəni həyatı Azərbaycanın müasir nailiyyətlərini özündə dolğun təcəssüm etdirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ölkəmizin dinamik sosial-iqtisadi yüksəlişinin təmin olunmasında Sumqayıt şəhərinin fəal iştirakını nəzərə alaraq **qərara alıram:**

**1.** Sumqayıt şəhərinin 70 illik yubileyi ölkədə geniş qeyd edilsin.

**2.** Sumqayıt Şəhər İcra Hakimiyyəti Sumqayıt şəhərinin 70 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**

## “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir avadanlıqla təchiz olunması üçün “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 fevral 2019-cu il**



# Azərbaycan gəncliyi ölkəmizin ümumi inkişafına böyük töhfələr verir

## *Prezident İlham Əliyevin tələbələrə təqaüd verilməsinə dair sərəncamları gəncələrə dövlət qayğısının daha bir nümunəsidir*

***Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.***

***Prezident İlham ƏLİYEVİN***
***Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı nitqindən***

**4 fevral 2019-cu il**

**Ölkə gəncliyinin uğurları, dövlətin gənc nəslə göstərdiyi qayğı və diqqət haqqında qələmə aldığımız bu material tam hazır olduqdan sonra kütləvi informasiya vasitələri xəbər yaydılar ki, Prezident İlham Əliyev “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Fərmana əsasən, ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği 185 manatdan 210 manata qaldırılıb. Bundan başqa, ali məktəb tələbələrinə verilən təqaüd sisteminin təkmilləşdirilməsi və doktorantlara, magistrlərə verilən təqaüdlərin artırılması üçün də xüsusi sənəd imzalanıb.

Azərbaycan gənclərinin bugünkü uğurlarını, gənclər təşkilatlarımızın mütəşəkkilliyini, hər bir fərdin xalqa, milli dövlətçiliyə xidmət etmək istəyini görəndə istər-istəməz müstəqilliyimizin ilk illəri yada düşür. O illərdə gənclərimiz dəhşətli bir qeyri-müəyyənlik içərisində, gənclər təşkilatlarımız isə pərakəndə vəziyyətdə idi. Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi gənclərin həyatında da sarsıdıcı günləri yaşayırdıq. Bəzi siyasi qüvvələr ordunu parçalayaraq hərəsi özünə xidmət edən dəstələr yaradır, digərləri gənclərin xeyli hissəsini öz ətrafına toplayaraq antizazərbaycan fəaliyyətlə məşğul olurdu. Sağlam ruhlu, Vətənə, xalqa xidmət etmək istəyən gənclər isə çaşqınlıq içərisində idilər.

Nəhayət, hamının arzuladığı zaman – ulu öndər Heydər Əliyevin ölkənin siyasi rəhbərliyinə qayıtdığı gün gəldi və Azərbaycan gəncliyinin yoluna günəş doğdu. Fevralın 1-də, Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında geniş nitq söyləyən Prezident İlham Əliyev dövlət müstəqilliyimizin ilk illərini daha əhatəli şəkildə yada salmış və bu günümüzlə müqayisə etmişdir: “O illər çox ağır illər idi. Azərbaycan böhrandan təzə-təzə çıxırdı. Ölkəmizdə iqtisadi vəziyyət çox ağır idi. Ölkəmizdə islahatlara start verilirdi. Bütün bu çətinliklərə baxmayaraq, ulu öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Ondan sonra da müvafiq qərarlar qəbul edilmiş, göstərişlər verilmişdir. 1999-cu ildə dövlət gənclər siyasəti haqqında fərman imzalanmışdır. Ondan sonrakı dövrdə də biz həmişə gənclərə dəstək olmağa çalışmışıq. 2005-ci ildən bu günə qədər üç Dövlət Proqramı qəbul edilmişdir. Bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi yaradılmışdır, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada məşq edənlərin əksəriyyəti gənclərdir”.

Xatırladaq ki, ölkəmizdə Gənclər Günü 22 ildir ki, qeyd olunur. Azərbaycan Gənclərinin Birinci Forumunun keçirilməsinin bir illiyi münasibətilə – 1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edilmişdi. Elə müasir gənclər siyasətimiz də Heydər Əliyevin ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi dövrdə – 1994-cü ildə formalaşmışdır. Həmin il ulu öndər Gənclər və İdman Nazirliyini yaratmışdı. Sonrakı proseslər isə bugünkü möhtəşəm Azərbaycan gəncliyinin formalaşdırılmasını təmin etmişdir.

Prezident respublika toplantısında böyük qürur hissi ilə dedi ki, bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar: “Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər”.

Həm ölkəmizdə, həm də, ümumiyyətlə, dünyanın hər yerində gənclərin qarşısında duran əsas istiqamətin məhz təhsil olduğunu daim , dönə-dönə yada salan dövlət başçımız üzünü bütün gənclərə tutaraq dedi ki, təhsilə çox böyük fikir versinlər: “Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar”.

Təbii ki, bu tezislər, ümumiyyətlə, bütün gənclər üçün nəzərdə tutulur. Azərbaycan gənclərinə gəlincə isə, onlar təkcə təhsilli olmaqla kifayətlənməməli, həm də, təhsillə yanaşı milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Çünki əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır: “Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir”.

Dövlət başçımız təkcə gənclərin qarşısında duran vəzifələrdən danışmadı, onların qazandığı uğur və nailiyyətlərdən də söz açdı. Həm də böyük fəxrlə: “Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır”.

Bu gün Azərbaycan gənci təkcə Lələtəpədə, Cocuq Mərcanlıda, Günnütdə bayrağımızı ucaldan əsgər və zabit deyil, o, həm də dünyanın hər yerində dövlət bayrağımızın qaldırılmasını təmin edən idmançıdır, atletdir. Bu faktı dövlət başçımız daha əhatəli şəkildə dilə gətirir: “Bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Görün, biz hansı böyük nailiyyətlərə çatdıq. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər. Biz bunu heç vaxt təsəvvür edə bilməzdik. İndi burada əyləşən gənclər sovet dövrünü xatırlamırlar, çoxları o vaxt heç doğulmamışdı. Ancaq o vaxt Azərbaycan idmanı sovet məkanında ön planda deyildi. Amma bu gün biz dünya miqyasında belə tarixi qələbələr qazanmışıq. Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmuşuq. Bu, bir daha göstərir ki, bizim gənc idmançılarımız nə qədər peşəkardır, iradəlidir, vətənpərvərdir”.

Prezident İlham Əliyev hələ dövlət başçısı seçildiyi zaman demişdi ki, biz neft kapitalının insan kapitalına çevrilməsini təmin etməliyik və edəcəyik. Fevralın 1-də keçirilən respublika toplantısında da dövlət başçımız həmin məsələyə qayıtdı: “Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmışdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Yəni, bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və əlbəttə ki, gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Ona görə bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır”.

Dövlət başçımız sonda təkcə toplantıda iştirak edən və ya bu tədbiri televiziya vasitəsilə izləyən soydaşlarımızı deyil, ümumiyyətlə, bütün azərbaycanlıları məmnun edən bir ifadəni dilə gətirdi: “Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdır”.

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədə "İmamzadə" dini kompleksini ziyarət edib







❒ ***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədə "İmamzadə" dini kompleksini ziyarət ediblər.***

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov VIII əsrə aid tarixi memarlıq abidəsi olan və xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksinin yenidənqurma işlərindən sonra bütün müsəlman dünyasından ziyarətçiləri qəbul etdiyini bildirdi. Qeyd edildi ki, bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.

Mehriban Əliyevaya və Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə edildi.

"İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Birinci vitse-prezident Mehriban Əliyeva burada ziyarətə gələnlərlə görüşdü.

Qeyd edək ki, fevralın 14-də "İmamzadə" kompleksində Azərbaycanın Birinci vitse-prezidentinin adından ehsan süfrəsi verilib.

***AZƏRTAC***

## Azərbaycanın Birinci vitse-prezidenti Gəncədəki 18 nömrəli tam orta məktəbdə olub

❒ ***Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncə şəhərində Nizami Aydın adına 18 nömrəli tam orta məktəbdə olublar.***



Məktəbin direktoru Mətanət Rzayeva burada sonuncu dəfə 1988-ci ildə cari təmir işlərinin aparıldığını və hazırda bu təhsil müəssisəsinin əsaslı şəkildə yenidənqurmaya ehtiyacı olduğunu bildirdi. 1965-ci ildən istismarda olan məktəbdə tədris Azərbaycan və rus bölmələrində aparılır. 39 sinifdən 28-i Azərbaycan, 11-i isə rus bölməsinə aiddir. 640 yerlik məktəbdə hazırda 795 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 56 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. 2017-2018-ci tədris ilində məktəbi 61 məzun bitirib və onlardan 20-si Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 4 nəfər 600-dən, 5 nəfər isə 500-dən yuxarı bal toplayıb.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya məlumat verildi ki, əsaslı təmir işlərindən sonra bu təhsil ocağında tədrisin keyfiyyəti daha da yüksələcək və məktəb birnövbəli iş rejiminə keçəcək.

*(ardı 4-cü səhifədə)*



# Azərbaycanın Birinci vitse-prezidenti Gəncədəki 18 nömrəli tam orta məktəbdə olub



(əvvəli 3-cü səhifədə)

**Şagirdlərlə söhbət edən Birinci vitse-prezident Mehriban ƏLİYEVA dedi:**

– Sizə uğurlar arzulayıram. Gələn dəfə sizinlə yeni məktəbdə görüşəcəyik. Sizin üçün burada ən yaxşı şərait yaradılacaq. Əsas odur ki, siz yaxşı oxuyun, bilikli, güclü, vətənpərvər olun. Məktəbinizdə hər cür şərait olacaq. Sizə uğurlar, cansağlığı arzulayıram, sağ olun.

**Şagird:** Biz Sizi görməyimizə çox şadıq.

**Mehriban Əliyeva:** Sağ ol, əziz balam. Mən də sizi görməyimə çox şadam. Çox sevinirəm ki, belə gözəl balalarımız var.

**Şagird:** Arzu edirəm ki, nankor ermənilərin tapdağı altında olan torpaqlarımız tezliklə azad edilsin və belə gözəl məktəblər həmin rayonlarda da tikilsin.

**Mehriban Əliyeva:** Əhsən, inşallah.

Birinci vitse-prezident məktəbdəki mövcud vəziyyətin araşdırılması və təcili surətdə yenidən qurulması üçün tapşırıqlarını verdi.

***AZƏRTAC***

# Azərbaycanın Birinci vitse-prezidenti Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olub





❒ ***Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olublar.***

Ev-muzeyinin direktoru İradə İbayeva muzey və onun nəzdində elmi-ədəbi tədqiqat şöbəsinin Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin 100 illik yubileyi ərəfəsində ədibin xatirəsinə ehtiram əlaməti olaraq yaradıldığını bildirdi. 2007-ci ildə istifadəyə verilən ev-muzeyinə ədibin pasportu, orden və medalları hədiyyə edilib. Hazırda bu əşyalar muzeyin ən dəyərli eksponatlarıdır.

*(ardı 5-ci səhifədə)*

# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədəki uşaq evinə baş çəkib







❒ ***Fevralın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Gəncədəki uşaq evinə baş çəkiblər.***

Uşaq evinin direktoru Nazilə İsmayılova hazırda Gəncə şəhər uşaq evi üçün daha bir korpusun inşasının aparıldığını bildirdi. Qeyd edildi ki, tikinti işlərinə ötən ilin dekabrında başlanılıb. Burada iki yataq otağı, qış idman zalı, əmək və istirahət otaqları, yeməkxana və camaşırxana nəzərdə tutulub.

Mehriban Əliyeva uşaq evindəki şəraitlə tanış oldu, müəssisənin azyaşlı sakinləri ilə görüşdü.

Balacalarla səmimi söhbət edən Birinci vitse-prezident onların uşaq evindəki yaşayışı, təhsili ilə maraqlandı.

Uşaqlar da Mehriban Əliyevanın ətrafına toplaşıb istək və arzuları ilə bölüşdülər, oxuduqları kitablardan, maraq göstərdikləri oyunlardan, sevdikləri əyləncələrdən danışdılar.

Uşaqları böyük maraqla dinləyən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva onlara yaxşı oxumağı tövsiyə etdi, bilikli və savadlı olmaq üçün təhsillərinə diqqətlə yanaşmalarının əhəmiyyətini vurğulayaraq dedi:

– Çox sağ olun, uşaqlar. Çox sağ olun ki, məni belə gözəl rəqslə qarşıladınız. Çox gözəl oynayırsınız.

**Direktor Nazilə İsmayılova:** Siz sağ olun, Mehriban xanım. Uşaqların adından Sizə təşəkkür edirik. Hər zaman Sizin isti qəlbinizin məhəbbətini hiss edirik. O qəlbin istiliyini hiss edirik ki, bu uşaqlar 2017-ci ildə Sizin təşəbbüsünüzlə 10 gün Moskva şəhərində oldular, istirahət etdilər, yeni dostlar tapdılar. Minnətdarıq, var olun, Allah Sizi, möhtərəm Prezidentimizi, ailənizi qorusun. Hər zaman dualarımız Sizinlədir.

**Mehriban Əliyeva:** Çox sağ olun. Bizim bu gözəl balalarımıza öz sevgimi çatdırıram. Bilin ki, siz bizim ölkəmizin gələcəyisiniz, siz mənim üçün çox əzizsiniz. Sizin indi əsas vəzifəniz ondan ibarətdir ki, yaxşı oxuyasınız, bilikli, savadlı olasınız. Çünki Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz. Mən də hər zaman Sizin yanınızdayam.

**Nazilə İsmayılova:** İnşallah. Çox sağ olun, Mehriban xanım, təşəkkür edirəm.

Qeyd edək ki, bu müəssisə 1997-ci ildən fəaliyyət göstərir və 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub, işıq, qaz və su xətləri yenilənib, mərkəzləşdirilmiş istilik sistemi yaradılıb. İkimərtəbəli binada 4 yataq otağı, psixoloq, həkim, kompüter, əmək və istirahət otaqları, mətbəx və yeməkxana, böyük idman zalı var. Səksən nəfərlik uşaq evində hazırda 40-ı oğlan, 28-i qız olmaqla, ümumilikdə 68 uşaq tərbiyə alır. Onlardan 14 nəfəri azyaşlı, digərləri isə məktəblidir. Uşaqların təlim-tərbiyəsi ilə 50 nəfərlik işçi heyəti məşğul olur. Binanın həyətində uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün attraksionlar quraşdırılıb, ərazidə yaşıllıq sahələri salınıb.

Sonda xatirə şəkli çəkdirildi.

***AZƏRTAC***

# Azərbaycanın Birinci vitse-prezidenti Gəncədə Mir Cəlal Paşayevin ev-muzeyində olub

*(əvvəli 4-cü səhifədə)*



Mir Cəlal Paşayevin ev-muzeyinin Gəncə şəhərində fəaliyyət göstərməsi təsadüfi deyil. Çünki o, Cənubi Azərbaycanda anadan olsa da, taleyi onu qədim Gəncə şəhərinə gətirib çıxarıb. Ədib həmişə Gəncəni sevib və doğma şəhəri bilib. Mir Cəlal Paşayevin uşaqlıq, gənclik və tələbəlik illəri, pedaqoji və ədəbi fəaliyyəti, ailə həyatı xronoloji ardıcıllıqla muzeyin ekspozisiyasında əksini tapıb. Hazırda eksponatların sayı 300-dən artıqdır. Muzey kompleksində 2009-cu ilin aprel ayında elmi-ədəbi tədqiqat şöbəsi fəaliyyətə başlayıb. Şöbənin yaradılması ədəbiyyatımızın tədqiqinə, araşdırılmasına xidmət edir.

Mir Cəlal Paşayev muzey kompleksində mütəmadi olaraq şair və yazıçıların kitab təqdimatları, şəhər ziyalıları ilə görüşlər, konsertlər, şagird və tələbələr üçün ədəbiyyat dərsləri, ekskursiyalar və digər ədəbi-bədii tədbirlər keçirilir. Muzey fəaliyyətə başladığı gündən şəhər əhalisinin, tələbə və şagirdlərin ziyarətgahına çevrilib.

**AZƏRTAC**

# Gəncədəki 32 nömrəli körpələr evi-uşaq bağçası yenidən qurulacaq





❐ ***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncədəki 32 nömrəli körpələr evi-uşaq bağçasına baş çəkiblər.***

Direktor Sahilə Hüseynova 280 yerlik bağçada hazırda 4 qrup üzrə 75 uşağın təlim-tərbiyə aldığını dedi. Bildirildi ki, ümumilikdə 20 nəfərlik heyət uşaqların sağlam, bilikli, bacarıqlı və vətənpərvər ruhda böyüməsi üçün çalışır. Aparılan təlim-tədris prosesi uşaqların ətraf aləmlə tanışlığını gerçəkləşdirmək, ibtidai təhsilə dəstək üçün ilkin bilgilər vermək, ünsiyyət qaydalarını öyrətmək, fiziki və zehni sağlamlığını qorumaq məqsədi daşıyır.

Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, 32 saylı körpələr evi-uşaq bağçasının yerləşdiyi bina 1985-ci ildə inşa edilib. Hazırda bu məktəbəqədər təhsil müəssisəsində əsaslı təmirə ehtiyac yaranıb.

Qeyd edək ki, son illərdə Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə yeni bağçalar istifadəyə verilir, mövcud olanların isə əsaslı yenidən qurulması həyata keçirilir. Bu məqsədlə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı uğurla icra olunur.

Birinci vitse-prezident Mehriban Əliyeva Gəncədəki 32 saylı körpələr evi-uşaq bağçasının da yenidən qurulmasının qısa zamanda və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini vurğuladı.

**AZƏRTAC**



# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncənin "Xan bağı"nda sakinlərlə görüşüb







❐ ***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fevralın 14-də Gəncənin görməli yerlərindən biri olan "Xan bağı" mədəniyyət və istirahət parkında sakinlərlə görüşüblər.***

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya "Xan bağı"nın simasının tamamilə dəyişdiyi barədə məlumat verildi.

Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan "Xan bağı"nda aparılan yenidənqurma işləri ilk dəfə məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Parkda müxtəlif ölkələrdən gətirilmiş ağaclar, dekorativ kollar əkilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub. Xalq şairi Nigar Rəfibəylinin heykəli və Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun qəbirüstü abidəsi də yeni görkəm alıb.

"Xan bağı" bitki florasının zənginliyinə görə bütün ölkədə məşhurdur. Ağacların növ tərkibi yerli cinslər hesabına artırılıb. Daxilində xiyabanlar salınıb, yay teatr binası, müxtəlif istirahət guşələri yaradılıb. Parkın yaraşıqlı yerlərindən biri də onun mərkəzində yerləşən əzəmətli çinar xiyabanıdır. Cərgələnən çinarlar arasında su hovuzları və fəvvarələr quraşdırılıb.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**Mehriban Əliyeva:** Xoş gördük, sizi salamlayıram.

**Sakinlər:** Çox sağ olun, bizə göstərdiyiniz qayğıya görə Prezidentimizə, Sizə böyük minnətdarlığımızı bildiririk. Xoş gəlmisiniz. Şəhərimizin rəhbərliyinə də minnətdarlığımızı bildiririk.

**Mehriban Əliyeva:** Yenidən Gəncədə olmağımdan çox şadam. Son dəfə beş il bundan əvvəl Gəncədə olmuşam. Gəncə qədim mədəniyyət mərkəzidir. Bütün dövrlərdə Gəncə incəsənət, mədəniyyət, memarlıq sənəti ilə tanınıb. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaradan görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Ona görə Gəncədə olmaq mənim üçün hər zaman çox xoşdur və çox sevinirəm ki, yenidən sizinlə görüşürəm.

**Sakinlər:** Biz Sizi çox istəyirik. Allah Prezidentimizin canını sağ eləsin. Hamımız Prezidentimizə təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

**Kişi sakin:** Prezidentimiz çox sağ olsun. Vaxtında sərmayə ayırdılar, işlər öz yolundadır, kirayə haqqı vaxtında verilir.

*(ardı 6-cı səhifədə)*

# Birinci vitse-prezident Mehriban Əliyeva Gəncənin “Xan bağı”nda sakinlərlə görüşüb









*(əvvəli 5-ci səhifədə)*

**Mehriban Əliyeva:** İlham Əliyev prezidentlik dövründə 15 dəfə Gəncədə olub, daim Gəncəyə diqqət göstərir. Gəncə bizim qədim şəhərdir, gözəl şəhərdir, böyük tarixə malik şəhərdir. Burada bütün tarixi, dini, memarlıq abidələri qorunur və qorunmalıdır. Amma, eyni zamanda, Gəncədə müasirlik var, müasir binalar, yeni yollar, infrastruktur, yeni parklar yaradılır. Xan bağı da qədim abidədir. Əlbəttə, tarixiliyi, qədim simanı qoruyub saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib. Burada təkrarolunmaz ab-hava var, əlbəttə, əsas gəncəlilərdir. Mən hər zaman sizin qonaqpərvərliyinizi, səmimiyyətinizi hiss edirəm, çox sağ olun, burada olmağıma çox şadam. Mən bir neçə məktəbə baxdım, uşaq bağçalarında, uşaq evində oldum. Əsas məqsədim ondan ibarətdir ki, problemləri, həllini tapmayan məsələləri bilim. Onların hamısı ardıcıl olaraq həllini tapmalıdır.

**Sakinlər:** Çox sağ olun, Allah razı olsun. Təşəkkür edirik, bizə belə qayğı göstərirsiniz.

**Kişi sakin:** Mən cənab Prezidentə təşəkkür etmək istəyirəm. Uzun müddət idi ki, evlərimizin damları yararsız hala düşmüşdü. İndi çox gözəl damlar düzəldilir. Allah Prezidentimizin canını sağ eləsin.

**Mehriban Əliyeva:** Vəsait ayrılıb.

**Kişi sakin:** Bəli, vəsait ayrılıb. Gözəl asfalt yollarımız, müasir məktəblərimiz, poliklinikalarımız var. Bütün bunlarla fəxr edirik. Məktəblərimiz, universitetimiz çox gözəldir. Bilirsiniz ki, Gəncə Dövlət Universiteti qərb zonasında ən böyük universitetdir. Orada ulu öndərimizin gözəl guşəsi var. Sizin bu gün Gəncəyə gəlməyiniz, xüsusilə Leyla xanımla gəlməyiniz bizi çox sevindirir. Düz deyirlər, o, bizim qızımızdır.

Dünya Azərbaycanlılarının arzusudur ki, bayrağımız Şuşada, Xankəndidə, Cəbrayılda, Zəngilanda, Kəlbəcərdə, Laçında dalğalansın.

**Mehriban Əliyeva:** Amin! Bu, hər bir azərbaycanlının ən böyük arzusudur, inşallah.

**Sakinlər:** Biz Prezidentimizə inanırıq, biz onu çox istəyirik. Gəncəlilər həmişə onun arxasındadır.

**Kişi sakin:** Mən Aqil Paşayevin 40 illik dostuyam. Sizə bir jurnal gətirmişdim, Mir Cəlal Paşayevin ev muzeyi haqqında idi.

**Mehriban Əliyeva:** Elə indi mən Mir Cəlal Paşayevin ev muzeyində oldum.

**Kişi sakin:** İndi Gəncədə çox gözəl işlər gedir. Əvvəllər küçələrimiz çala-çuxur idi. İndi qəşəng asfalt salınır. Dam örtükləri təzələnir, həqiqətən, böyük savab iş görmüsünüz.

**Mehriban Əliyeva:** Prezident də sizə salamlarını göndərdi. Mənə dedi ki, gəncəlilərdən soruşun, onları narahat edən hansı məsələlər var, ardıcıl olaraq hamısı həllini tapacaq.

Məktəblərlə bağlı məsələlərlə sıx məşğul oluram. Siz bilirsiniz ki, son 15 ildə ölkə üzrə 3 mindən çox məktəb tikilib və ya bərpa olunub. Ölkəmizdə bir dənə də təmirsiz məktəb qalmamalıdır. Ona görə bu sahədə ardıcıl olaraq bütün tədbirlər görülür, həm dövlət proqramı çərçivəsində, həm də Heydər Əliyev Fondunun dəstəyi ilə. Mənə məlumat verdilər ki, uşaq bağçaları ilə bağlı problem var, beşi qəzalı vəziyyətdədir. Dərhal məşğul olacağıq ki, onların da maddi-texniki bazasını yenidən quraq. Bilirəm ki, Gəncə şəhərində infrastrukturla bağlı çox işlər görülür, qazlaşdırma, enerji ilə təminat 100 faizdir.

**Kişi sakin:** Ölkəmizdə əmin-amanlıq var. Cənab Prezident müharibə olmasını istəmir, torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışır. Sizin daha bir xeyirxah işiniz - xəstə uşaqların, xəstə anaların müalicəsinə kömək etməyiniz bizi çox ruhlandırır. İnanın, elə bil ki, Siz hər gün o uşaqlarla gedib Məkkəni ziyarət edib gəlirsiniz. Bu, çox xeyirxah işdir. Ona görə də bu gözəl qızlar Sizə minnətdardırlar.

**Mehriban Əliyeva:** İmkanım olanda hər zaman kömək etməyə çalışıram.

**Kişi sakin:** Bəli, çox sağ olun, Allah imkanlarınızı daha da çox eləsin.

**Mehriban Əliyeva:** Mən bilirəm ki, keçən ilin noyabr ayında bu binada partlayış olub. Hadisə zamanı əfsuslar olsun ki, 3 nəfər həlak olub, Allah rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Amma onu da deyim ki, bu məsələ Prezidentin tam nəzarəti altındadır, Sərəncam da imzalanıb, vəsait də ayrılıb. Qısa bir zamanda yeni, müasir və çoxmənzilli yaşayış binası tikiləcək və 36 ailənin hər biri yeni mənzillə təmin olunacaq.

**Qadın sakin:** Çox sağ olun, Sizin qayğınızı hər zaman hiss edirik.

**Mehriban Əliyeva:** Mən də sizin məhəbbətinizi, dəstəyinizi hiss edirəm, çox sağ olun.

**Kişi sakin:** Tez-tez gəlin, Mehriban xanım, Sizi gözləyəcəyik.

**Gənc kişi sakin:** Gəncənin gəncləri adından təşəkkür edirəm. Mən Prezidentin gənclərin xaricdə təhsili ilə bağlı Fərmanına əsasən Almaniyanın Fray Universitetində təhsil almışam, fəlsəfə doktoruyam. Çox təqdirəlayiq haldır ki, ölkəmizdə gənclərə çox böyük dəstək var, önəm verilir. Hazırda Gəncədəki Aqrar Universitetin elm şöbəsində çalışıram. Bizim rektorumuz da gənclərə çox önəm verir. Mən özüm də şadam ki, xaricdə doktorantura üzrə təhsil alıb gəlmişəm və çox böyük diqqət və qayğı ilə əhatə olunmuşam. Buna görə bir gənc kimi Prezidentimizə, Sizə çox təşəkkürümü bildirirəm, çox minnətdaram. Çox xoşdur ki, Sizinlə görüşüb ürək sözlərimi deyə bildim.

**Mehriban Əliyeva:** Çox gözəl, bunu eşitməyə çox şadam, çox sağ olun.

**Qadın sakin:** Gəncəlilərin salamlarını cənab Prezidentə çatdırmağı xahiş edirik. Biz onu çox sevirik.

**Mehriban Əliyeva:** Sağ olun, mən sizin salamlarınızı Prezidentə çatdıracağam. Çox sağ olun. O da sizi çox sevir.

**Yaşlı kişi sakin:** Mehriban xanım, elimizin, obamızın, millətimizin gözəl xanımı. Möhtərəm Prezidentimizlə çiyin-çiyinə bu mürəkkəb dünyada Azərbaycanı belə gözəl vəziyyətdə saxlayıb, hörmətli Prezidentimizin özünün dediyi kimi, bir sabitlik adasına çevirməyin özü böyük şərəfdir. Sizinlə burada görüşməyimiz bizim üçün böyük şərəfdir. Ulu öndərin yadigarı, möhtərəm Prezidentimiz Gəncəyə həmişə diqqət göstərir. Mehriban xanım, Siz də Gəncəyə həmişə qayğı göstərirsiniz. Bunları bir-iki kəlmə sözlə sadalayıb qurtarmaq mümkün deyil. Siz özünüz bizdən də yaxşı bilirsiniz ki, Gəncə üçün hansı işlər görülüb, Gəncədə elə bir gözəl şərait yaranıb ki, burada işləmək də, yaşamaq da şərəfdir. Biz qürur hissi keçiririk ki, Sizin kimi rəhbərlərimiz var. Biz hər şeydən arxayınıq. Bu gözəl balalar da Sizinlə görüşə gəliblər. Mehriban xanım, bu gözəllik Sizin sayənizdədir.

**Qadın sakin:** Evimiz hazır olsun, Sizi qonaq dəvət edərik, İnşallah.

**Mehriban Əliyeva:** Sağ olun. Mən şadam bunların hamısını eşitməkdən. Mən də ürək sözlərimi deməliyəm. Mən çox xoşbəxtəm ki, yenidən Gəncədəyəm. Gəncə xüsusi şəhərdir. Gəncənin mehriban insanları, gözəl memarlığı, qədim tarixi, təkrarolunmaz ab-havası var. Əlbəttə, mən məktəblərə də getdim, uşaq evlərində, muzeydə, “İmamzadə” Kompleksində oldum. Amma buraya gələndə mənim əsas məqsədim o idi ki, gəncəlilərlə görüşüm. Doğrudan da mən sizin bu dəstəyinizi, sevginizi hər zaman qəlbimdə hiss edirəm. İnanın ki, eyni hissləri mən də yaşayıram. Dediyim kimi, cənab Prezident 15 dəfə Gəncədə olub və İnşallah, yenə də olacaq. Ona görə burada həyata keçirilən bu abadlaşma, bu inkişaf hər zaman bizim diqqətimizdədir, hər zaman bizi sevindirir. Amma, eyni zamanda, yenə də deyirəm ki, hələ də öz həllini tapmayan problemlər də var. Biz onları bilməliyik, biz onların həlli üçün ardıcıl tədbirlər həyata keçirməliyik. Çünki əsas məqsəd odur ki, insanlar rahat, xoşbəxt yaşasınlar və ölkəmizdə bunun üçün hər şey var. Mən sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Çox şadam hər birinizi görməyə. Çox sağ olun. Çalışacağam Gəncəyə tez-tez gəlim.

**Yaşlı kişi sakin:** Biz də Sizə minnətdarıq, Mehriban xanım. Mən ulu öndərlə 3 dəfə görüşmüşəm. Onun keçirdiyi plenumlarda, büro iclaslarında iştirak etmişəm. Gəncəlilər Heydər Əliyev ideyasına həmişə sadiqdirlər və həmişə də sadiq olacaqlar. Gəncəlilər Prezident İlham Əliyevin arxasındadırlar. Mehriban xanım, gəncəlilər Prezident İlham Əliyevin və Sizin dəstəyinizi hiss edirlər və minnətdardırlar. Gəncədəki bugünkü sabitlik, abadlıq, quruculuq işləri fərəhlidir, ürəkaçandır. Bunu hər bir gəncəli hiss edir. Hər bir gəncəlinin çöhrəsindən də hiss etmək olur ki, bu, doğrudan belədir. Sizə təşəkkür edirik. Bizim salamlarımızı Prezidentimizə çatdırın.

**Mehriban Əliyeva:** Çox sağ olun. Mütləq çatdıracağam.

**Yaşlı kişi sakin:** Mehriban xanım, minnətdarıq ki, işinizin bu qədər çox olduğu bir zamanda vaxt tapıb Gəncəyə gəlmisiniz, gəncəlilərlə görüşür və onları dinləyirsiniz. Sizə cansağlığı, uzun ömür arzulayıram.

**Mehriban Əliyeva:** Çox sağ olun. Söz verirəm ki, Gəncəyə tez-tez gələcəyəm. Əmin olun ki, Gəncə ilə bağlı bütün məsələlər, problemlər mənim diqqət mərkəzimdədir. Siz hər zaman əmin ola bilərsiniz ki, hər bir məsələ, sizi narahat edən hər bir sualla bağlı biz əlaqədə ola bilərik və mən əlimdən gələni etməyə hazıram.

Siz yəqin bilirsiniz ki, biz Heydər Əliyev Fondunun nəzdində gənclərin “Regional İnkişaf” İctimai Birliyini yaratmışıq. Burada çalışan bütün gənclər istedadlıdırlar, vətənpərvərdirlər. Yəqin ki, görmüsünüz, Şamaxıda zəlzələdən sonra onlar orada gecə-gündüz çalışırlar, insanlara kömək edirlər. Yəni, bu kömək həm də mənəvi kömək olmalıdır. Ona görə onlar burada da çalışırlar. Gəncədə yaşayan gənclər də bu birliyə qoşula bilərlər. Ona görə bizim daim əlaqəmiz olacaq.

Mənə göstərdiyiniz belə səmimi, belə isti qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm. Prezidentin səmimi salamlarını sizə çatdırıram. Çox sağ olun.

**Kişi sakin:** Xoş gəlmisiniz Mehriban xanım. Bütün digər sahələrdə olduğu kimi, elmin, təhsilin, mədəniyyətin inkişafına göstərdiyiniz qayğıya görə cənab Prezidentə və Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Milli Elmlər Akademiyasına daim dövlət qayğısı göstərilir, əməkhaqqımız qaldırıldı. Minimum əməkhaqqı artırıldı. Gəncə şəhəri üçün nə qədər işlər görüldü. Niyazi müəllimin buraya təyin edilməsi bizə ürək rahatlığı verdi. Bütün ziyalılar adından bizim salamlarımızı, minnətdarlığımızı cənab Prezidentə çatdırmağınızı xahiş edirəm. Biz sizi çox sevirik.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Kişi sakin:** Mehriban xanım, bütün gəncəlilər adından Sizi salamlayıram. Mən Gəncə Dövlət Universitetinin professoruyam. Biz buraya gəlmişik ki, Sizi görək. Xahiş edirəm bizim minnətdarlığımızı Prezidentimizə çatdırın.

**Mehriban Əliyeva:** Çatdıracağam, sağ olun.

***AZƏRTAC***



**Son günlər Ermənistan mətbuatında N.Paşinyan hakimiyyətinin siyasətini tənqid edən yazıların sayı artıb. Ekspertlər rəsmi İrəvanın səriştəsiz xarici siyasət yeritdiyindən daha açıq bəhs edir, baş nazir N.Paşinyanın xalqla qeyri-səmimi davrandığı barədə yazırlar. Konkret olaraq erməni ictimaiyyətinin Dağlıq Qarabağla bağlı danışıqlarda nələrin müzakirə edildiyindən xəbərdar olmadığı haqqında informasiyalar yayılır. Xalq hakimiyyət nümayəndələrinin bunları gizlətməsinin səbəbini anlamağa çalışır. Burada maraqlı olan özünü xalqın içindən çıxmış siyasətçi hesab edən və bu şüar altında hakimiyyətə yiyələnən N.Paşinyanın reallığı xalqdan gizlətməsidir. Aydın görünür ki, baş nazir və komandası öz cəmiyyəti ilə səmimi olmağı bacarmır. Səbəb nədir? Bu sualın təhlili üzərində bir qədər geniş dayanmağa ehtiyac görürük.**

# Cənubi Qafqazın geosiyasi arxitekturası: lider Azərbaycan və təcrid olunmuş Ermənistan

## Dalana aparan yol: Davosdan sonrakı gizlinlər

Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Davos görüşü erməni tərəfi üçün bir kabusa dönüb. Onlar nələrin müzakirə olunduğu barədə təlaşla bəhs edirlər. Erməni ekspertlər hesab edirlər ki, N.Paşinyan hansısa məqamları ictimaiyyətdən gizlədir. Buna səbəb baş nazirin özünün müəmmalı fikirlər söyləməsidir. Çünki Davosdan birbaşa Moskvaya gedən N.Paşinyanı Rusiya Prezidenti Vladimir Putin qəbul etməyib. Baş nazir Dmitri Medvedevlə görüşən erməni hökumətinin rəhbəri yenə də konkret heç nə ifadə edə bilməyib. Jurnalistlərə isə bəyan edib ki, İlham Əliyevlə Davosda "əlbəttə, Qarabağ münaqişəsi haqqında danışdıq. Faktiki olaraq bu, rəsmi müzakirə deyildi, qeyri-rəsmi ünsiyyət idi".

Dağlıq Qarabağ ətrafında Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması ilə bağlı verilən suala isə onun cavabı belə olub ki, "Arsaxı (Dağlıq Qarabağ nəzərdə tutulur – red.) təmsil etmir və ancaq Ermənistanın adından danışa bilər". Ekspertlər bu cavabı N.Paşinyanın sualdan yayınması və baş aldatması kimi qiymətləndiriblər. Maraqlıdır ki, hətta ermənipərəst rusiyalı ekspertlər Davos görüşündən sonra N.Paşinyanı ciddi tənqid edirlər. Stanislav Tarasov daha irəli gedərək iddia edib ki, yazda Ermənistanla Azərbaycan arasında saziş imzalanacaq, ermənilər yeddi rayonu Azərbaycana qaytaracaq və əvəzində Türkiyə parlamenti məlum protokolları təsdiqləyəcək və bununla da kommunikasiya xətləri açılacaq.

Bütün bunlara N.Paşinyanın RBK telekanalına verdiyi müsahibədə "Biz Ermənistandan keçən tranzit neft-qaz layihələrində çox maraqlıyıq" deməsi əlavə olunub. Bunu ekspertlər erməni baş nazirin dolayı etirafı kimi qiymətləndiriblər. Belə ki, N.Paşinyan təəssüflə Ermənistandan ən kiçik boru xəttinin belə keçmədiyini boynuna alır. İndi isə Rusiyaya, İrana və Avropa İttifaqı ölkələrinə yalvarır ki, Ermənistandan "hansısa tranzit boru xətti inşa edilsin və hansısa A nöqtəsindən B nöqtəsinə qaz və ya neft nəql edilsin". Bu halda təbii ki, belə bir sual meydana gəlir: "indiyə qədər Ermənistandan belə bir boru xətti niyə keçməyib?"

**Bunun cavabı aydındır:** çünki Azərbaycanın ərazisinin 20 faizini Ermənistan məhz havadarlarının köməyi ilə işğal edib və həmin torpaqlardan çıxmaqdan boyun qaçırır. Deməli, dolayısı ilə N.Paşinyan Ermənistanın xarici siyasətinin reallığa əsaslanmadığını etiraf edib. Hətta bir sıra erməni ekspertlər bunu açıq deməyə başlayıblar. Məsələn, Hrant Məlik-Şahnazaryan "İrates" qəzetinə müsahibəsində bu barədə konkret fikirlər söyləyib. O deyib ki, Ermənistanın "xarici siyasəti tamamilə iflasa uğrayıb".

Belə mövqedə olan ekspertlər az deyil. Onlar hesab edirlər ki, Dağlıq Qarabağla bağlı aparılan danışıqların məzmununu N.Paşinyan gizlədir. Bu da Ermənistan vətəndaşlarında və Xankəndidə separatçı-terrorçu kütlədə təlaş yaradır. Onlar nə baş verdiyini anlaya bilmirlər. İnformasiyaların kasadlığı "müxtəlif bədbin hipotezlərə əsas yaradır". Dağlıq Qarabağdakı separatçı-terrorçu elementlərin də danışıqlarda nələrin müzakirə olunduğundan xəbərsiz olması barədə məlumat verməsi bu təəssüratı daha da gücləndirib. O cümlədən baş nazirlə xarici işlər nazirinin dedikləri bir-birilə ziddiyyət təşkil edir. Xarici işlər naziri Azərbaycan tərəfi ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar tam formatlı danışıqlar apardığını deyirsə, baş nazir "ancaq Ermənistanı təmsil edirəm" söyləyir, yəni özünü kənarda tutmağa çalışır. Bunun fonunda Davosda İlham Əliyevlə danışıqlara can atır. Bu ziddiyyətin səbəbi nədir? Erməni ekspert sualın cavabını bilmir.

## İki fərqli rəhbər: Bakının uğurları İrəvanın iflası fonunda

Sonra ifadə edilir ki, N.Paşinyan 1 ildir ki, ABŞ-ın rəhbərliyi ilə görüşə bilmir. Lakin Prezident Donald Tramp İlham Əliyevə bir neçə dəfə məktub yazıb, Con Bolton da həm görüşüb, həm də yanvarın 29-da Azərbaycan Prezidentinə zəng edib. Erməni ekspert bununla əlaqədar sual edir: N.Paşinyanla ünsiyyətə həvəsli olmayan Vaşinqton İlham Əliyevə zəng etməklə hansı məqsədi ortaya qoyur? Məsələ ondan ibarətdir ki, C.Bolton söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələləri, o cümlədən enerji təhlükəsizliyini, təhlükəsizlik sahəsində əməkdaşlığı və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesini Azərbaycanın dövlət başçısı ilə müzakirə edib.

Deməli, Amerika tərəfi əmindir ki, Ermənistan və Azərbaycan rəhbərliyi münaqişənin həlli ilə bağlı danışıqlar aparırlar. Və bu prosesdə Azərbaycanın mövqeyinə xüsusi diqqət yetirilir, çünki məhz Azərbaycan daim sülh və barış prinsipi ilə çıxış edir, regional əməkdaşlıq üçün real addımlar atır. Belə olduğu halda, N.Paşinyanın enerji marşrutlarından danışması nəyi ifadə edir?

Bütün bunlardan H.Məlik-Şahnazaryan belə qənaətə gəlir ki, Ermənistanın xarici siyasəti dalana dirənib. Onu artıq nə Qərb, nə Rusiya, nə də İran ciddi qəbul etmir. Rusiya ilə münasibətlərin hazırkı vəziyyəti məlumdur. Müşahidələr göstərir ki, ABŞ və Avropa da Ermənistana ciddi münasibət göstərmirlər. İran haqqında da indiki erməni iqtidarının yüksək vəzifəli şəxsləri ziddiyyətli fikirlər söyləyirlər. Görünür, onlar Amerika ilə İranın maraqlarını balanslaşdırmağa çalışırlar, lakin bu da qeyri-peşəkar səviyyədə həyata keçirildiyindən əksinə işləyir. Buradan da ümumilikdə Ermənistanın xarici siyasətinin tam iflasa uğradığı bəlli olur.

Bunlar bütövlükdə Cənubi Qafqazda geosiyasi mənzərə barədə təsəvvürlər əldə etməyə əsas verir. Aydın görünür ki, Ermənistanın siyasi rəhbərliyi çox çətin və ziddiyyətli vəziyyətə düşüb. O, atdığı addımları erməni cəmiyyətindən gizlətməyə məcburdur. Səbəbi ondan ibarətdir ki, uzun illərdir apardıqları təbliğatın tamamilə yalan üzərində qurulduğu aydınlaşır. Rəsmi İrəvan təcrid olunduğunu etiraf etməsə də, öz vətəndaşlarını Azərbaycan ərazisində ikinci erməni dövləti qurduğu ilə çaşdırsa da, indi bu manevrləri edə bilmir. Bunu təsdiq edən ən azı iki əlamət mövcuddur.

***Birincisi,*** Azərbaycan bütün sahələrdə, o cümlədən ordu quruculuğunda Ermənistandan dəfələrlə irəlidə olduğunu əyani göstərib. Bu, həm yeni silahlarla təminatda, həm də Aprel və Naxçıvan döyüşlərində özünü göstərdi. Hər iki döyüşdə Azərbaycan Ordusu hərbi-texniki, strateji və taktiki baxımdan Ermənistandan çox güclü olduğunu sübut etdi. Açıq deməsələr də, bu məqam Ermənistan rəhbərliyinə anlatdı ki, artıq hərbi gücə arxalanmaq mümkün deyildir. İstənilən anda Azərbaycan Ermənistanı məhv edə bilər.

***İkincisi,*** Azərbaycan xarici siyasətdə o dərəcədə uğurludur ki, hətta Ermənistanla eyni hərbi-iqtisadi blokda təmsil olunan dövlətlər belə onu müdafiə edirlər. Bu barədə erməni ekspertlər dərin təəssüf hissi ilə danışırlar. Rusiya, Belarus və Qazaxıstan Azərbaycan Prezidenti ilə daha çox ünsiyyətdə olur, onunla əməkdaşlığı inkişaf etdirirlər. Bunun fonunda isə N.Paşinyanla görüşməyə belə həvəsli görünmürlər.

Amerika və Avropa ölkələri də Azərbaycanla əməkdaşlığa çox ciddi münasibət göstərirlər. Onlar Azərbaycanın dünyanın enerji xəritəsini dəyişməsinə yüksək qiymət verirlər. N.Paşinyan isə real heç nə əldə edə bilmir. Son olaraq o, Almaniyaya səfər edib. Lakin hansı konkret nəticəyə nail olub? Aİ-nin Azərbaycana qoyduğu sərmayələr dəfələrə çoxdur.

Bunlardan belə çıxır ki, Cənubi Qafqazda artıq lider dövlət kimi Azərbaycan geosiyasi arxitekturanın yenidən qurulmasında aparıcı rol oynayır. Ermənistan isə heç olmasa müəyyən dərəcədə iştirakçı olmağa cəhdlər edir. Enerji marşrutlarından rəsmi İrəvanın kədərlə bəhs etməsi məhz bunun əlamətidir. Lakin Ermənistanın bundan sonra da tam kənarda qalmaması yalnız bir şərtlə mümkün ola bilər: işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etsin! Başqa heç bir faktor, hətta havadarlarının yardımı və dəstəyi belə Ermənistanı tənəzzüldən və siyasi xaosdan xilas edə bilməyəcək. Bunu dünya ictimaiyyəti dərk edir, qalır Ermənistan rəhbərliyi.

*Newtimes.az*

---

**Son illərdə beynəlxalq aləmdə Azərbaycanın imici kifayət qədər güclənib. Bu da, şübhəsiz ki, ölkədə aparılan uğurlu daxili və xarici siyasətlə, ictimai-siyasi sabitliklə, həyata keçirilən ardıcıl və məqsədyönlü sosial-iqtisadi islahatlarla bağlıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bu siyasət son nəticədə təkcə ölkə daxilində deyil, həm də xaricdə müsbət reaksiya doğurur. Əslində, Azərbaycanın xarici siyasətinin prioritetlərini ümummilli liderimiz Heydər Əliyev müəyyənləşdirib: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur.**



# Azərbaycanın xarici siyasəti milli maraqlara xidmət edir

Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Şübhəsiz ki, bu yol indiyə qədər gözlənilir və nəticədə xarici siyasətimiz uğurlar qazanır. Uğurlarımızı şərtləndirən ən mühüm amillərdən biri də ölkənin və xalqın milli maraqlarının qorunmasıdır, xarici siyasətimiz milli maraqlarımızın təmin olunmasına xidmət edir. Bu barədə Real TV-yə müsahibəsində Prezident İlham Əliyev də danışıb. Dövlət başçısı bildirib ki, bəzi xarici mətbu orqanlarda, ekspert cəmiyyətlərində belə bir fikir söylənilir ki, Azərbaycan balanslaşdırılmış, tarazlaşdırılmış siyasət aparır və elə bil, bu regionda balans axtarır. "Bu, belə deyil. Biz balans axtarmırıq. Biz, sadəcə olaraq, xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq".

Doğrudan da, Azərbaycan xarici siyasətində milli maraqların tələb etdiyi şəkildə davranır. Bu, bir çox hallarda həm də tarixi zərurətdən irəli gəlir. Azərbaycan 70 ildən artıq sovet imperiyasının tərkibində olub, 28 il əvvəl müstəqilliyinə qovuşduqdan sonra ağır hərbi-siyasi durumla, iqtisadi böhranla qarşılaşıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi inkişafa nail olunub, Ermənistanın təcavüzü dayandırılıb, atəşkəs əldə edilib. Sonrakı illərdə dövlətin apardığı siyasət müstəqilliyin qorunub saxlanılmasına, inkişaf etdirilməsinə, bütün sahələrdə milli maraqların qorunmasına xidmət edib.

Odur ki, bu gün Azərbaycan yerləşdiyi coğrafiyada sülh və əmin-amanlıq adasına çevrilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz son illərdə Ermənistan istisna olmaqla, bütün qonşularla dostluq münasibətlərini gücləndirib. Həm ikitərəfli formatda, həm də Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatında yaxşı münasibətlər qurulub.

Məhz bu uğurlu xarici siyasət sayəsində hazırda Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib. Bu da qonşu ölkələrlə yaxşı münasibətlər sayəsində mümkün olub. Azərbaycan nəinki yaxın qonşularla, eyni zamanda, uzaq coğrafiyada olan ölkələrlə də uğurlu əməkdaşlıq yarada bilib. Bu əməkdaşlıq formatı imkan verib ki, ölkəmiz öz nəhəng, transmilli layihələrini uğurla icra edə bilsin.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə münasibətlər xüsusi yer tutur. Bu əməkdaşlığın əsası 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyulub. Avropa İttifaqının 14 iyun 2004-cü il tarixli qərarı ilə Azərbaycan Avropa Qonşuluq Siyasətinə (AQS) daxil edilib. Bu təşkilatla Azərbaycan arasında əməkdaşlığın başqa bir istiqaməti Şərq Tərəfdaşlığı (ŞT) təşəbbüsü çərçivəsində həyata keçirilir. Bu təşəbbüs tərəfdaş ölkələrlə münasibətləri daha yüksək səviyyəyə qaldırmağı, mövcud əməkdaşlığı ikitərəfli və çoxtərəfli formatda davam etdirərək genişləndirməyi nəzərdə tutur. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq Prioritetləri" adlı sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı birmənalı olaraq dəstəklənir.

Azərbaycan bir sıra beynəlxalq təşkilatların, o cümlədən, Qoşulmama Hərəkatının üzvüdür. Bu, dünyada BMT-dən sonra ikinci böyük təşkilatdır. Hərəkat Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli qətnamə qəbul edib. Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu, ölkəmizin beynəlxalq nüfuzunu artırır. Azərbaycan bir neçə il əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Özü də çox çətin bir mübarizədə. On altı turdan sonra ölkəmiz öz istəyinə nail ola bilib. Bu, onu göstərir ki, beynəlxalq aləmdə Azərbaycana inam, rəğbət var, ölkəmizin apardığı müstəqil siyasət dünya dövlətləri tərəfindən dəstəklənir. Bu gün Azərbaycan dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Məhz buna görə Prezident İlham Əliyev bəyan edib: "Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik".

Onu da xatırlatmaq yerinə düşərdi ki, son illərdə dünyada, eləcə də, MDB məkanında, Yaxın Şərqdə, Avropada ictimai-siyasi vəziyyət gərginləşməkdədir. Bu və ya digər ölkədə münaqişələr, qanlı toqquşmalar, müharibələr alovlanır, insanlar həyatını itirir, milyonlarla yeni köçkün dalğası yaranır. Ölkələr arasında ziddiyyətlər kəskinləşir, müttəfiqlər arasında münasibətlər pozulur. Bu gün bunu dünyanın müxtəlif yerlərində müşahidə etmək mümkündür. Azərbaycan isə yerləşdiyi regionda sabitlik məkanıdır. Bu da səbəbsiz deyil. Səbəb, ilk növbədə, ölkədə düzgün siyasət aparılması ilə bağlıdır. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların bir ailə kimi yaşaması, dini-milli zəmində heç vaxt ayrı-seçkiliyin olmaması bunu şərtləndirən amillərdir. Bununla bağlı Azərbaycan Prezidenti deyib: "Bu, həm bizim siyasətimizdir, həm də ki, xalqdan gələn bir niyyətdir, təşəbbüsdür, sifarişdir, eyni zamanda, aparılan işlərə xalq tərəfindən göstərilən dəstəkdir".

Azərbaycan, eyni zamanda, müsəlman aləminin bir hissəsidir, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox müsbət rol oynayır və bu rol yüksək qiymətləndirilir. Azərbaycan hələ də bir-biri ilə lazımi səviyyədə əlaqələr qura bilməmiş müsəlman ölkələri arasında dostluq körpüsü rolunu oynayır. Elə İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri də Azərbaycanın bu sahədəki rolunu çox yüksək qiymətləndirirlər. Ölkəmiz İslam həmrəyliyinin güclənməsinə böyük töhfələr verir. Bakıda İslam Həmrəyliyi Oyunları keçirildi. Bu, sadəcə, bir idman yarışı deyildi, bu, bütün müsəlman ölkələrinin gənclərini, idmançılarını bir araya gətirən dostluq, həmrəylik bayramı idi. Bu Oyunların yüksək səviyyədə keçirilməsi müsəlman aləmində Azərbaycanın rolunu daha da gücləndirdi.

Bundan əlavə, Rusiya ilə bütün sahələrdə və səviyyələrdə qarşılıqlı əlaqələrimiz çox yüksəkdir. Keçən il rekord sayda – 900 minə yaxın rusiyalı turist Azərbaycana səfər edib. Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı səfərləri münasibətlərin daha da möhkəmlənməsində çox mühüm rol oynayır. Azərbaycan və Rusiya arasında münasibətlər qonşular arasında münasibətlərə nümunə ola bilər. Buna görədir ki, Rusiya Patriarxı Kiril deyib: "Zəngin və qədim tarixi olan, mürəkkəb sivilizasiya qovuşuğunda yerləşən Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. Bakıya hətta ötəri nəzər salanda burada çox böyük dəyişikliklər baş verdiyi görünür. Bakı əla infrastruktura malik olan çox gözəl şəhərə çevrilir".

Başqa ölkələrin siyasi xadimləri də Azərbaycan haqqında yüksək fikirlər söyləyiblər. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Ross Uilson bildirib ki, Bakı-Tbilisi–Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və digər nəqliyyat layihələri regionun inkişafı ilə yanaşı, Avropanın enerji təhlükəsizliyində, eləcə də Avropa ilə Asiyanın birləşdirilməsində mühüm rol oynayır. Potidə dərin özüllü yeni limanın tikintisi bu layihələrin əhəmiyyətini daha da artıracaq, Azərbaycan və Gürcüstan xalqlarının rifahının yüksəlməsinə xidmət edəcək.

Misirin "Al-Diplomasy" qəzetinin baş redaktoru Məhəmməd Salama: "Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası, BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa Parlamenti, Avropa İttifaqı, MDB və digər qurumlar çərçivəsində Ermənistan tərəfindən işğal edilmiş torpaqların geri qaytarılması üçün çox səy göstərir. Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə güclü, müasir və yaxşı hazırlıqlı, müasir silahlarla təchiz olunmuş orduya malikdir. İlham Əliyev öz ölkəsini tərəqqi və davamlı inkişaf yolu ilə inamla irəli aparır. Son illərdə ölkə bütün sahələrdə nəzərəçarpacaq uğurlar qazanıb və bu gün Azərbaycan beynəlxalq aləmdə layiqli yer tutur".

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver: "Avrasiyada sülhü, təhlükəsizliyi, əməkdaşlığı, xüsusilə də enerji, nəqliyyat sahələrində əlaqələri Azərbaycan qədər dəstəkləyən ikinci dövlət, Azərbaycan Prezidenti qədər dəstəkləyən ikinci Prezident yoxdur".

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***



# Prezident İlham ƏLİYEV: Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək

> *Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.*
>
> *İlham ƏLİYEV*
> *Azərbaycan Respublikasının Prezidenti*

*(əvvəli 1-ci səhifədə)*

Xatırladaq ki, Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun uzunluğu 20,5 kilometr, hərəkət hissəsinin eni 6-14 metrdir. İki və dörd hərəkət zolaqlı yol yüksək keyfiyyətlə tikilib. Magistral boyunca üç avtobus dayanacağı, suötürücü borular, 78 yol nişanı və göstərici lövhələr quraşdırılıb. Uzunluğu 73 min metr olan yol-cizgi xətləri çəkilib, dörd körpü əsaslı təmir edilib.

Dövlətimizin başçısına mərasimdə rayonun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsi barədə də məlumat verilib. Bildirilib ki, dördüncü texniki dərəcəli yolun ümumi uzunluğu 39,4 kilometrdir. İki hərəkət zolaqlı yolun hərəkət hissəsinin eni isə altı metrdir.

İyirmi iki min nəfər əhalinin yaşadığı səkkiz yaşayış məntəqəsini birləşdirən bu yolun təmiri yük və sərnişin daşınmasının daha da yaxşılaşdırılmasına imkan verəcək.

Son 15 ildə Azərbaycanda idman komplekslərinin yaradılmasına da mühüm önəm verilib. Bu, təsadüfi deyil. Çünki respublikamızın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması, bir sözlə, idmanın kütləviliyinin təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Beyləqanda Olimpiya İdman Kompleksinin tikintisinə qərar verilərkən, məhz bu amilə əsaslanılıb. Dövlətimizin başçısının iştirak etdiyi mərasimdə kompleksin tikintisinə 2018-ci ildə başlanıldığı, tikintisinin davam etdirilməsinə isə ümumilikdə 17,5 milyon manat vəsait ayrıldığı xatırladılıb.

Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Mərasimdə çıxış edən dövlətimizin başçısı deyib: “Bu mərkəzin yaradılması bizim idman siyasətimizin təzahürüdür, onu göstərir ki, doğrudan da Azərbaycan idman dövlətidir. Biz çalışırıq bütün bölgələrdə, hər bir rayonda müasir idman kompleksləri tikilsin ki, gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olsunlar. Bu şəraiti biz yaradırıq. Deyə bilərəm ki, bu Olimpiya İdman Kompleksi ən yüksək dünya standartlarına cavab verir. Burada bizim gənc idmançılarımız məşq edəcəklər, yarışacaqlar və beləliklə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldıracaqlar”.

Prezident İlham Əliyev daha sonra çıxışında bütün bölgələrimizdə hazırda bu istiqamətdə işlər getdiyini, cari il əlavə iki Olimpiya İdman Kompleksinin açılışının gözlənildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan dövləti sözügedən istiqamətdə öz siyasətini uğurla aparır. Bunun nəticəsində idmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında yüksək nəticələr əldə edirlər: “Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, idmançılarımız bu gün dünya miqyasında ən yüksək zirvədədirlər. Bunu Olimpiya Oyunları da göstərir. Keçən Yay Olimpiya Oyunlarında medalların sayına görə bizim komandamız dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi bir qələbədir. Çünki biz bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Dünya və Avropa çempionatlarında da bizim idmançılarımız ən yüksək nəticələr göstərərək bayrağımızı zirvələrə qaldırırlar”.

Dövlətimizin başçısı, həmçinin Azərbaycanda idmanın inkişafının diqqət mərkəzində saxlanıldığını, idmançıların, gənclərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradıldığını diqqətə çatdırıb.

Prezident İlham Əliyev Olimpiya İdman Kompleksinin açılışı mərasimində etdiyi çıxışında Beyləqan rayonunun inkişafına daim diqqət göstərildiyini, bu istiqamətdə işlər görüldüyünü, infrastruktur və sosial layihələrin icra edildiyini də bildirib: “İndi Beyləqan rayonunda qazlaşdırmanın səviyyəsi 97 faizdir. Yaxın zamanlarda bu, 100 faizə çatacaq. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl qaz təchizatı çox aşağı səviyyədə idi, bu, çox böyük göstəricidir. Bu gün fəaliyyətə başlayacaq yeni yarımstansiya Beyləqan rayonunun elektrik enerjisi ilə təminatını böyük dərəcədə yaxşılaşdıracaq və bu sahədə də heç bir problem olmayacaq”.

Dövlətimizin başçısı nitqində gələcəkdə rayonda sosial-iqtisadi layihələrin daha da sürətlə icra ediləcəyinə əminliyini ifadə edib. Vurğulayıb ki, yol infrastrukturunun yenilənməsi istiqamətində işlər davam etdiriləcək, kənd yollarının təmiri, bərpası, tikintisi daha geniş vüsət alacaq.

Ölkə rəhbəri çıxışında 2016-cı ildə Beyləqan şəhərinin içməli su probleminin həllini tapdığını, hazırda isə kanalizasiya sisteminin yenidən qurulması, təmizləyici qurğuların quraşdırılması prosesinin getdiyini də xatırladıb.

Prezident İlham Əliyev rayonun iqtisadi vəziyyətinə də münasibət bildirib. Sahibkarlığa dəstək göstərildiyini, iş adamlarına güzəştli şərtlərlə kreditlər verildiyini, üç aqropark yaradıldığını, kənd təsərrüfatının müasir səviyyədə inkişaf etdirildiyini məmnunluqla xatırladıb.

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqana səfəri çərçivəsində əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyi ilə, həmçinin Müdafiə Nazirliyinin rayon ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Dövlət başçısının rəhbərliyi ilə son illərdə respublikamızda elektroenergetika sahəsində mühüm işlər görülüb, bu sektorda mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidentinin rayona səfəri çərçivəsində “Beyləqan-1” yarımstansiyasının istifadəyə verilməsi də bunun bariz nümunəsidir.

Ölkə rəhbərinin “Beyləqan-1” yarımstansiyasının açılışı mərasimində qeyd edilib ki, rayonda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi prioritet məsələlərdən olub. İntensiv tikinti, yenidənqurma və bərpa işləri nəticəsində kəndlərin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Son illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib. Hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

Prezidenti İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, ölkəmizin uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına, ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Beyləqan rayonuna səfəri də bunun bir daha əyani nümunəsinə çevrildi.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

# Peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir





## Prezident İlham Əliyev bundan sonra da ordumuzun ən müasir silahlar və texnika ilə təchiz olunacağını bildirib

**Peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir. Bu baxımdan, işğal altında olan ərazilərimizin öz gücümüzə azad edilməsi üçün nizami ordunun formalaşdırılması zəruri məsələlərdən idi. Dövlətimizin başçısı bu vəzifəni həyata keçirdiyi siyasətin prioritetinə çevirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılması sahəsində qətiyyətli addım oldu. Qısa müddətdə müxtəlif növ atıcı silahlar və döyüş vasitələri, artilleriya qurğuları, zirehli texnika, o cümlədən müxtəlif aviasiya bombaları, pilotsuz uçan aparatlar, atıcı silahlar üçün döyüş ləvazimatları, kiçik kalibrli avtomat tapançalar, optik cihazlar, müasir raket quraşdırıcıları və digər məhsullar – gizlənmə dəsti, qranatomyot, minaların və NATO standartlarına cavab verən tapançaların istehsalına başlandı. Hazırda Azərbaycanda 1200 növə yaxın müdafiə təyinatlı məmulatlar istehsal olunur. Silahlı Qüvvələrimiz qısa müddətdə nizami ordu kimi formalaşmağa başladı. Döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işlər ordu quruculuğunda böyük rol oynadı.**

2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında “Azərsilah” ASC-nin yaradılması ilə bağlı imzaladığı fərman Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması, hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub.

Azərbaycan xalqını və dövlətini daim narahat edən Dağlıq Qarabağ problemi, ölkəmizin ərazisinin 20 faizinin işğal altında olması, bir milyondan artıq soydaşımızın ata-baba yurdlarından didərgin salınmasıdır. Bu problemin aradan qaldırılması istiqamətində mühüm işlər həyata keçirilir. Silahlı Qüvvələrin möhkəmləndirilməsi də dövlətin prioritet sahələrindən ən zərurisidir. Ordumuz müasir silah və texnika ilə təchiz olunur, şəxsi heyətin sosial bazasının möhkəmləndirilməsi məqsədilə yeni hərbi hissələr yaradılır, şəhərciklər, xidməti mənzillər tikilərək əsgər, gizir və zabitlərin istifadəsinə verilir. Daha bir hərbi hissə Beyləqan rayonu ərazisində inşa olunub.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Beyləqan rayonuna səfəri zamanı Müdafiə Nazirliyinin bu rayon ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, inşasına 2017-ci ildən başlanılmış və 13 hektar ərazini əhatə edən “N” saylı hərbi hissədə artıq tikinti işlərinin birinci mərhələsi başa çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir.

Müasir tələblər səviyyəsində qurulmuş hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi də diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla 48 mənzilin tikintisi davam etdirilir. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıb.

Prezident, Ali Baş Komandan İlham Əliyev silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu. İlk məqamda diqqəti cəlb edən yaylım atəşli reaktiv sistem -SMERÇ kompleksi oldu. Bu hərbi texnika reaktiv mərmilər atmaqla nüvə hücum vasitələrinə, cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə tank, motoatıcı, artilleriya və raket bölmələrinə, enmə meydançalarında helikopter bölmələrinə, mövqelərdə raket və hava hücumundan müdafiə bölmələrinə, idarəetmə məntəqələrinə tələfat vermək üçün təyin olunub. Məlumat verildi ki, 122 millimetrlik yaylım atəşli reaktiv sistem BM-21 cəmləşmə rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, atəş mövqeyində artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq üçün təyin edilib. 220 millimetrlik TOS-1A ağır odatan sistemi T-90 tankının şassisi üzərində quraşdırılan reaktiv qurğudur. O, idarə olunmayan reaktiv mərmilərin daşınması, saxlanması, hədəfə tuşlanması və düşmənin tağım - dayaq məntəqəsi tipli ərazi hədəflərini, həmlə edən bölük, artilleriya və minaatan batareyalarının atəş mövqelərini, marşda olan avtomobil kalonlarının məhv edilməsi üçün təyin olunub.

152 millimetrlik 2A36 topu da diqqəti cəlb edib. Bu top vasitəsilə düşmənin taktiki raket vasitələrini, uzaqvuran artilleriya bölmələrini məhv etmək və susdurmaq, düşmənin canlı qüvvəsini, atəş vasitələrini, marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, müdafiə məntəqələrini sıradan çıxarmaq və susdurmaq, düşmənin arxa cəbhəsini və idarəetmə məntəqələrini tələfata uğratmaq mümkündür. Hərbi hissə ilə tanışlıq zamanı 130 millimetrlik M46 topu, 120 millimetrlik “Nizə” minaatanı, tank əleyhinə idarə olunan raket kompleksi “Xrizantema-S”, Tank əleyhinə raket kompleksi “SPİKE-LR”, “SPİKE-ER” qurğusu, “Orbiter-2B” pilotsuz uçuş aparatı, “R-010SC” komanda-qərargah maşını, “R-010SC” radioidarəetmə məntəqəsi barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, nümayiş olunan hərbi texnikalar vasitəsilə düşmənin artilleriyasını, minaatanlarını, cəmləşmə rayonlarında yerləşən texnikasını və canlı qüvvəsini, arxa xidmət məntəqələrini və ordunun idarəetmə bölmələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq, həmçinin düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək mümkündür.

“SPİKE-ER” qurğusu isə döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşan, 400 metrdən 8 min metrədək, gündüz, gecə və məhdud görmə şəraitlərində düşmən tanklarını, PDM, zirehli texnikalarını, aşağı yüksəklikdə uçan hava hədəflərini məhv etmək üçün raket buraxıcı sistemdir.

Bu texnikalar, sutkanın istənilən vaxtında, hava şəraitindən asılı olmayaraq, hərəkət edən və etməyən yerüstü və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Tank əleyhinə raket kompleksi düşmənin 200 metrdən 4 min metrədək məsafədə hərəkət edən və hərəkətsiz tank və zirehli texnikalarını, canlı qüvvələrini məhv etmək üçün təyin olunub. Kompleks yüngül çöl müdafiə qurğularına, binalara, alçaqdan uçan helikopterlərə də dəqiq atəş açmaq imkanı yaradır, həmçinin hava kəşfiyyatını aparmaq, istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək, kompleksi düşmənin atəş açan taktiki raketlərinin, reaktiv qurğularının, haubitsaları və minaatanlarının kəşfiyyatını aparmağa və öz artilleriya bölmələrimizin atışına xidmət etmək üçün təyin olunub.

“N” saylı hərbi hissədə yaradılan şəraitlə tanışlıq zamanı məlum oldu ki, şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlardan ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana-qazanxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıb.

Prezident İlham Əliyev yeməkxanada yaradılan şəraitlə də maraqlandı, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi. Silahlı Qüvvələrin Ali Baş Komandanının hərbçilərlə bir yerdə nahar etməsi əsgər və zabitlərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəldir. Onlar arxalarında Ali Baş Komandanın, dövlətin qayğısını hiss edirlər.

Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi hissələrdə aparılan yenidənqurma işləri ilə şəxsən tanışlığı və təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərləri döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasında böyük rol oynayır, hərbçilərimizi işğal altındakı torpaqlarımızın azad edilməsi yolunda hər an savaşa qalxmağa ruhlandırır.

2016-cı ildə Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsinin azad olunması, Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin ələ keçirilməsi, Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına alınması və bunun da nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağın işğaldan azad edilməsi, ümumilikdə 11 min hektara yaxın ərazinin nəzarət altına alınması ordumuzun düşmənə hər an layiqli müqavimət göstərmək əzmindən xəbər verir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

# Beyləqanlılar Prezidentin rayona qayğısını yüksək dəyərləndirirlər



*❒ Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfəri həmişə ciddi yeniliklərlə yadda qalır. Bu səfərlərdə ölkə rəhbəri son illər aparılan abadlıq-quruculuq işlərinə böyük diqqət yetirir, bölgələrdə görülən işlərlə yerindəcə tanış olur, rayon rəhbərlərinə növbəti tapşırıq və tövsiyələrini verir. Bu baxımdan dövlət başçısının Beyləqan rayonuna səfəri də böyük önəm daşıyır. Ölkə rəhbərinin Beyləqana səfəri ilə bağlı rayon sakinlərinin təəssüratlarında da Prezidentin bölgələrin hərtərəfli inkişafına göstərdiyi diqqət və qayğı minnətdarlıqla vurğulanır.*

**Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Mehriban İsgəndərova:**

– Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Cənab Prezidentin rayonumuza səfəri və əsaslı təmirdən sonra Tarix-Diyarşünaslıq Muzeyinin, Beyləqan Olimpiya İdman Kompleksinin və rayonda yenidən qurulan "Beyləqan-1" yarımstansiyasının açılışında iştirak etməsi hər kəsdə böyük sevinc və məmnunluq doğurdu. Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, rayon və şəhərlərdə kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.

**Rayon ağsaqqallar şurasının sədri Ələmşad Məmmədquliyev:**

– Möhtərəm Prezidentimizin rayonumuza səfəri hər birimizdə yüksək əhval-ruhiyyə doğurur. Beyləqanlılar hər zaman dövlət başçısının siyasi kursunu dəstəkləyirlər. Onun apardığı daxili və xarici siyasət sayəsində tezliklə torpaqlarımızın işğaldan azad ediləcəyinə inanırıq. Möhtərəm Prezidentimizin son illər bölgələrə səfərləri müntəzəm xarakter almışdır. Prezident İlham Əliyev Beyləqana altıncı dəfədir ki, səfər edir. Bu səfərlərin hər biri rayonumuz üçün əlamətdar hadisələrlə yadda qalmışdır. Ölkə başçısının səfəri zamanı bir sıra sosial obyektlərin açılışı oldu. Bütün bunlar rayonumuza göstərilən diqqət və qayğının bariz nümunəsidir.

**Nahidə Ağayeva, rayon sakini:**

– Son illər ölkəmiz sürətlə inkişaf edir, həyat dəyişir, şəhər, kəndlər yeniləşir. Dövlət başçısının Beyləqana səfəri də bu baxımdan yaddaqalan oldu. Cənab Prezident səfər çərçivəsində sir sıra sosial obyektlərin açılış mərasimində iştirak etdi. Bundan başqa, ölkə başçısının rayon sakinləri ilə səmimi söhbəti bizim üçün unudulmaz anlar yaşatdı. Beyləqanlılar Prezident İlham Əliyevin yürütdüyü kursu daim dəstəkləyir, onun daxili və xarici siyasətini ürəkdən bəyənirlər.

**Sahib Nəsibov, rayon sakini:**

– Mən ölkə başçısının rayonumuza səfərindən çox razı qaldım. Prezident İlham Əliyevin Beyləqan Olimpiya İdman Kompleksinin və digər sosial obyektlərin açılışını etməsi bizi çox sevindirdi. İdman kompleksinin açılışı rayonun idman ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılandı. Biz hər birimiz bütün görülən işlərə görə ölkə başçısına öz minnətdarlığımızı bildiririk.

**Babək Hacıyev, rayon sakini:**

– Bu gün bölgələrimizin sürətlə inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bütün bunlar isə dövlət başçımızın həyata keçirdiyi uğurlu siyasət sayəsində mümkün olmuşdur. Biz beyləqanlılar da bu gün öz həyatımızda bunun şahidi oluruq. Belə ki, Prezident İlham Əliyevin rayonumuza səfəri və görülən işlərlə yerindəcə tanış olması bizi çox məmnun etdi. Ölkə başçısının rayonda yerləşən "N" saylı hərbi hissədə yaradılmış şəraitlə tanış olması düşmənin təmas xəttinə yaxın bölgədə məskunlaşmış beyləqanlılarda ərazilərimizin etibarlı müdafiəsi ilə bağlı əminliyi bir daha artırdı.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"***

*❒ Azərbaycan dövlətinin son 15 ildəki inkişafı, aparılan islahatlar, reallaşdırılan dövlət proqramları və özəl sektorun yüksək səviyyədə dəstəklənməsi bütün bölgələrimizin tərəqqisinə zəmin yaradıb. Həmin tərəqqini sürətləndirən əsas amillərdən biri də Prezident İlham Əliyevin müntəzəm olaraq ölkənin müxtəlif bölgələrinə səfərlər etməsidir. Dövlət başçımızın fevralın 13 - də Beyləqan səfəri də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.*

# İslahatlar və dinamik inkişaf Mil düzünə yeni rövnəq verir



Bölgələrin inkişafı ilə bağlı danışarkən söz açılmalı ilk məsələlərdən biri də həm respublika əhəmiyyətli, həm də daxili yolların müasir standartlara cavab verən şəkildə tamamilə yenidən qurulmasıdır. Dövlət başçımız yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqində demişdir ki, hazırda kənd yollarının tikintisi geniş vüsət alıb: "Biz görürük ki, harada yeni yol çəkilir, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq, sosial layihə deyil. Son 14 il ərzində 12 min 300 kilometr yol çəkilmişdir. Bu il bu rəqəm təqribən 15 min kilometrə çatacaq. Son 14 il ərzində 443 körpü tikilmişdir".

Cənab Prezidentin Beyləqan səfəri çərçivəsində də ölkənin avtomobil yollarından birinin -- tamamilə yenidən qurulmuş Mingəçevir – Stansiya, Mingəçevir – Bəhrəmtəpə -- Beyləqan avtomobil yolunun açılış mərasimi keçirildi. Dövlət başçısına məlumat verildi ki, bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Mingəçevir-Stansiya. Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 14,6 milyon manat ayrılıb. Uzunluğu 20,5 kilometr olan yolun hərəkət hissəsinin eni 6-14 metrdir.

Maraqlıdır ki, dövlət başçımız Beyləqan Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi mərasimindəki çıxışında da yol məsələsinə xüsusi toxundu: "Bu gün biz yeni yolun açılışını qeyd etdik. Gələcəkdə bu istiqamətdə işlər aparılacaq ki, kənd yollarının təmiri, bərpası, tikintisi daha da geniş vüsət alsın. Bu günə qədər bir neçə layihə icra edilmişdir. Bunlar daha da geniş miqyasda icra edilməlidir".

Bilavasitə Mil torpağına, Beyləqan rayonuna gəlincə isə dövlət başçımız xatırlatdı ki, 2016-cı ildə Beyləqan şəhərinin içməli su problemi öz həllini tapdı: "Yəni, rayonun inkişafı ilə bağlı ardıcıl siyasət aparılır. Əlbəttə ki, sosial infrastruktur da burada çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, Beyləqanda 140 çarpayılıq rayon mərkəzi xəstəxanası, bir çox məktəblər tikilmişdir. İndi mənə dedilər ki, Dünyamalılar kəndində yerləşən məktəb uyğunlaşdırılmış binadadır. O məktəbin tikintisi ilə bağlı göstəriş veriləcək. Gözəl Olimpiya Kompleksi yaradılıb, digər sosial obyektlər, Gənclər Mərkəzi fəaliyyət göstərir. Yəni, bir sözlə, rayonun inkişafı kompleks xarakter daşıyır və əminəm ki, Beyləqan rayonu bundan sonra da yüksək nəticələr göstərəcək və vətəndaşlar burada qurub-yaradacaq, ümumi işimizə töhfə verəcəklər".

Bütün bunlar o deməkdir ki, ölkədə həyata keçirilən islahatlar Mil düzünə yeni inkişaf, tərəqqi, rövnəq verir. Bu isə dövlət başçımızın regionların inkişafına ayırdığı diqqət və qayğının nəticəsidir.

***Tofiq BAKIXANOV,***
***Xalq artisti, professor***

# Əsas məqsəd Azərbaycanı müasir, daha da inkişaf etmiş ölkəyə çevirməkdir

**Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasəti Azərbaycanın uğurlarını getdikcə artırır, dövlətçiliyin möhkəmləndirilməsində, ölkədə idarəetmənin çevikliyinin təmin edilməsində böyük rol oynayır. Həmin siyasətin nəticəsidir ki, bu gün ölkəmiz təkcə bölgədə deyil, dünya miqyasında da tanınır. Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş dövlətləri bu gün Azərbaycanla strateji müttəfiq olmağa çalışırlar. Ölkəmizin təkcə qonşu dövlətlərlə deyil, məsafəcə uzaq dövlətlərlə qarşılıqlı əməkdaşlığı, strateji tərəfdaşlığı xarici siyasətimizin uğurlarıdır. Bütün bunlar həyata keçirilən məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin bariz nümunəsidir.**



Dövlət başçısı tərəfindən mövcud situasiyaya uyğun olaraq idarəetmə sistemində islahatların aparılması, bu istiqamətdə mühüm qərarlar qəbul edilməsi respublikamıza "dünyada ən islahatçı" ölkə imici qazandırmaqla yanaşı, həmçinin davamlı iqtisadi inkişafı təmin edib.

Prezident İlham Əliyev bu günlərdə Real televiziyasına verdiyi geniş müsahibədə bu barədə daha ətraflı danışdı. Qeyd etdi ki, 2019-cu ildən bizim islahatlarımızın yeni mərhələsi başlayır: "Bu da təbiidir. Çünki ötən il keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı mənə bir daha böyük etimad göstərib və mən bu seçkilərə islahatlar gündəliyi ilə getmişəm". Dövlət başçısı keçən ilin ikinci yarısından başlayaraq, islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparıldığını diqqətə çatdırdı və bu ilin əvvəlindən yeni islahatlara start verildiyini bildirdi.

Prezident qeyd etdi ki, 2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən ölkəyə çevirmək, mövcud nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifahını yaxşılaşdırmaq və daha güclü, qüdrətli dövlət qurmaqdır.

Bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparıldığını qeyd edən möhtərəm Prezidentimiz həm beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış etdiyimizi bir daha diqqətə çatdırdı.

Qeyd edək ki, son illərdə Azərbaycan dövləti tərəfindən çox əhəmiyyətli, zəruri layihələrə imza atılıb. Ölkə rəhbərinin müsahibəsindən də aydın olur ki, Azərbaycan daim inkişaf yolundadır. İstər idarəetmədə, istərsə də iqtisadi sahədə aparılan islahatlar insan kapitalının, insan amilinin daha da inkişaf etdirilməsinə, daha əlverişli şəraitin yaradılmasına istiqamətləndirilib.

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor***

# Azərbaycan xalqı öz liderinə böyük rəğbət və məhəbbət bəsləyir

**Azərbaycan Prezidenti İlham Əliyev Beyləqan rayonunda səfərdə olub, burada bir sıra mühüm obyektlərin açılışında iştirak edib. Əlamətdar haldır ki, Beyləqanda möhtərəm Prezidentin sakinlərlə çox səmimi görüşü və söhbətləri olub. Bu barədə Azərbaycan Tibb Universitetinin professoru Anar Ağayev söhbət zamanı dedi:**



– Mən möhtərəm Prezidentin Beyləqana səfərini televiziyadan böyük maraqla izlədim. Özüm üçün bir daha yəqin etdiyim həqiqət budur ki, Azərbaycan xalqı dövlətimizin başçısına böyük rəğbət və məhəbbət bəsləyir.

Bu gün dünyadakı bütün dövlət və hökumət rəhbərləri arzulayırlar ki, öz xalqının inam və etimadını qazana bilsinlər. Mən təsəvvür etmirəm ki, bütün dünyada hansısa dövlət başçısı öz xalqının sonsuz sevgisini Prezident İlham Əliyev qədər qazana bilmiş olsun. Bu, böyük xoşbəxtlikdir.

Azərbaycan xalqı həqiqətən xoşbəxtdir. Ona görə ki, ulu öndər Heydər Əliyevin xalqımızın parlaq gələcəyinə xidmət edən müdrik siyasəti hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Azərbaycan xalqı bu siyasi kursu tam dəstəkləyir.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# Əhalinin güzəranının yaxşılaşması istiqamətində növbəti addım

*❒ Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev ölkə əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində növbəti humanist addımını atdı, ölkəmizdə minimum əmək haqqının məbləği 50 manat, yəni 38,4 faiz artırılaraq 2019-cu il martın 1-dən 130 manatdan 180 manata qaldırıldı. Dövlət başçımızın bu sərəncamı ilə ölkəmizdə minimum əmək haqqının yaşayış minimumuna çatdırılması təmin edildi.*



Təbii ki, artımın birdən-birə 50 manat həcmində olması əhali tərəfindən böyük sevinclə qarşılandı. Artıq bəzi mənbələrin hesablamalarına görə, Prezidentin sərəncamı ilə minimum əmək haqqının 180 manat olması ən azı 600 min nəfərə şamil olunacaq. Bu isə 600 min ailənin sevinci, güzəranının yaxşılaşması deməkdir.

Dövlət başçımız bu addımı ilə həm də Azərbaycan büdcəsinin sosialyönümlü olduğunu bir daha sübut etdi. Azərbaycanın dövlət büdcəsinin mühüm hissəsinin sosial xərclər üçün nəzərdə tutulması ölkəmizdə vətəndaşların sosial müdafiəsinə, onların rifah halının yaxşılaşmasına daim diqqət yetirilməsinin bariz göstəricisidir.

Maraqlı məqamlardan biri də budur ki, hazırda dünyada qlobal sosial-iqtisadi problemlər davam etsə də, Azərbaycan Prezidenti ölkəmizdə sosial xərclərin azaldılmasına imkan vermir. Bu gün Azərbaycanda heç bir sosial layihə dayandırılmayıb. Azərbaycan Prezidenti bu günlərdə zəlzələnin baş verdiyi ərazilərə də baş çəkdi, insanlara dövlət tərəfindən hər cür kömək göstəriləcəyini bəyan etdi. Bu faktın özü də İlham Əliyevin həmişə xalqın yanında olduğunu bir daha təsdiq etdi.

***Üzeyir ŞƏFİYEV,***
***sosiologiya üzrə fəlsəfə doktoru***

# Azərbaycanda sosial siyasət daim diqqət mərkəzindədir

*❒ Prezident İlham Əliyevin son günlər əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi, minimum aylıq əməkhaqqının artırılması haqqında müvafiq sərəncamlar imzalaması bunun bariz ifadəsidir*



Ölkəmizdə əhalinin, xüsusən də onun aztəminatlı təbəqəsinin alıcılıq qabiliyyətinin artırılması, müxtəlif sosial ödənişlərin, o cümlədən əmək haqlarının, pensiyaların, müavinətlərin və təqaüdlərin artırılması məsələsinə mühüm önəm verilir. Prezident İlham Əliyev bununla bağlı deyib: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Bütün atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır".

Dövlət başçısı mühüm sosial proqramların icrasını, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin təmin edilməsini dövlət qarşısında strateji vəzifələrdən biri kimi müəyyən edib. Bu istiqamətdə son 15 ildə mühüm tədbirlər həyata keçirilib, əmək haqları 7 dəfə, minimum əmək haqları 6,5 dəfə artırılıb.

Prezident İlham Əliyev minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli sərəncamında dəyişiklik edilməsi barədə imzaladığı 8 fevral 2019-cu il tarixli sərəncam da respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində atılan növbəti mühüm addımdır.

Minimum əməkhaqqının artımı birbaşa olaraq 600 minədək vətəndaşı əhatə edəcək. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərəcək.

Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Bu mühüm sosial əhəmiyyətli tədbir, eyni zamanda, əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərəcək.

Minimum əməkhaqqının artımı əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərəcək. Eyni zamanda, nəzərə alınmalıdır ki, Əmək Məcəlləsinə əsasən, müxtəlif amillərə görə işçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qadağan edilir.

Prezident İlham Əliyevin "Biz həm sosial məsələlərin həlli, həm də iqtisadi inkişaf ilə bağlı siyasətimizi gələn illərdə də davam etdirəcəyik" – deməsi bundan sonra da ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsinin, bütün sosial proqramların uğurla davam etdirilməsinin prioritet istiqamətlər olacağına əsas verir.

***Vəkil HÜSEYNOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru***

# Əmək pensiyaları 2 gün ərzində tam ödəniləcək



**Azərbaycanda əmək pensiyalarının ödənilməsi iki gün ərzində təmin ediləcək. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Fazil Talıbov deyib.**

F.Talıbov bildirib ki, Prezident İlham Əliyevin 7 fevral 2019-cu il tarixli sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi həyata keçirilir.

O qeyd edib ki, bu indeksləşdirmə nəticəsində bütün növ əmək pensiyalarının sığorta hissəsi 2018-ci il üzrə orta aylıq nominal əmək haqqının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 2019-cu ilin 1 yanvar tarixinə artırılması təmin edilir.

Şöbə müdiri vurğulayıb ki, bu istiqamətdə proses artıq yekunlaşmaq üzrədir və iki gün ərzində əmək pensiyalarının tam olaraq ödənilməsi təmin ediləcək.

*"Xalq qəzeti"*

# Türkiyədə Xocalı unudulmur




**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində görülən işlərin tərkib hissəsi olaraq Türkiyənin Kahramanmaraş şəhərində salınan Xocalı Parkının və burada ucaldılan Ana fəryadı abidəsinin açılış mərasimi keçirilib.**

Trend-in məlumatına görə, açılış mərasimində rəsmi şəxslər, diplomatlar, millət vəkilləri, Türkiyə ictimaiyyətinin tanınmış nümayəndələri, yerli sakinlər, QHT və KİV nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib, şəhidlərimizin ruhlarına dualar oxunub.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Kahramanmaraş Böyükşəhər Bələdiyyəsinin sədri Fateh Mehmet Erkoc, Türkiyə Böyük Millət Məclisinin deputatı İmran Kılıç, Azərbaycanın Ankaradakı səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Kahramanmaraş-Azərbaycan Təhsil Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Tural Şahbazlı və başqalarının çıxışları dinlənilib.

Çıxışlarda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təcavüzkar Ermənistanın Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı törətdiyi soyqırımı aktı ötən əsrdə dünyada insanlıq əleyhinə ən ağır cinayətlərdən biri kimi dəyərləndirilib.Bildirilib ki, Azərbaycan və Türkiyə xalqları heç zaman Xocalı soyqırımını unutmayacaqlar

Kahramanmaraş şəhərində belə bir parkın salınması və burada Xocalı abidəsinin ucaldılması Azərbaycan-Türkiyə qardaşlığının daha bir nümunəsidir.

Sonra parkda Xocalı şəhidlərinin xatirəsinə ağaclar əkilib.





**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Almaniyada işgüzar səfərdədir. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, məqsəd bu il 15-17 fevral tarixlərində keçiriləcək Münxen Təhlükəsizlik Konfransında iştirak etməkdir.**

# Nazir Təhlükəsizlik Konfransında iştirak edəcək

Səfər çərçivəsində xarici işlər nazirinin 55-ci Münxen Təhlükəsizlik Konfransında iştirakı ilə yanaşı, bir sıra ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.



Münxen konfransı 1962-ci ildən başlayaraq hər il keçirilir. 1993-cü ilə qədər Hərbi məsələlər üzrə konfrans adlanırdı və Xristian-Sosialist İttifaqının himayəsi altında keçirilirdi. Konfrans 1998-ci ildən başlayaraq Almaniya hökuməti tərəfindən maliyyələşdirilir. Tədbirin banisi və rəhbəri 1998-ci ilə qədər tanınmış naşir Evald-Henrix fon Kleyst-Şmentsin olmuşdur. 1999- cu ildən konfransa Almaniyanın sabiq kansleri Helmut Kolun xarici və hərbi məsələlər üzrə müşaviri Horst Tolçik , 2009-cu ildən Volfqanq İşinger rəhbərlik edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə Münxen Təhlükəsizlik Konfransında iştirak və çıxış etmişdir.

# TAP beynəlxalq mükafata layiq görülüb




**Böyük Britaniyanın London şəhərində Beynəlxalq Layihə Maliyyələşdirilməsi (PFI) jurnalının illik qala gecəsi keçirilib.**

Bu nüfuzlu mükafatın qalibləri arasında 3,9 milyard avro dəyərində olan layihənin maliyyələşdirilməsi ilə ilin Avropa Neft və Qaz Sövdələşməsi mükafatını almış Trans Adriatik Boru kəməri (TAP) layihəsi də olub.

Qeyd edək ki, PFI qlobal enerji və infrastruktur layihələrinin maliyyələşdirilməsi ilə bağlı xəbərlər, məlumat və analiz sahəsində aparıcı nəşrdir.

Mükafatlandırma gecəsində kommersiya banklarının, beynəlxalq maliyyə institutlarının (BMİ), layihə şirkətlərinin və sponsorların, o cümlədən Cənub Qaz Dəhlizi QSC-nin (CQD QSC) vəzifəli şəxsləri iştirak ediblər. 3,9 milyard avro dəyərində olan TAP layihəsinin maliyyələşdirilməsi 2018-ci ildə Avropa infrastruktur layihələri üçün razılaşdırılmış ən iri layihə maliyyələşdirilməsi olub.

Maliyyələşmə bir sıra kommersiya bankları və BMİ-lər tərəfindən təmin edilib.

CQD QSC bu maliyyələşmədə Trans Adriatic Pipeline AG (TAP AG) şirkətində sahibi olduğu 20 faizlik pay ilə əlaqədar borc üzrə




zəmanətçilərdən biri kimi çıxış edir (Azərbaycan Respublikası tərəfindən verilən təkrar zəmanət əsasında), eləcə də TAP AG-yə tələb edilən nizamnamə kapitalını öz payları nisbətində təmin etməyə davam edir.

TAP Türkiyə-Yunanıstan sərhədində birbaşa TANAP-la birləşəcək və Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən keçərək təbii qazı Cənubi İtaliyaya nəql edəcəkdir. Təbii qazın Azərbaycan Respublikasından Avropa bazarlarına ixracının ən qısa və birbaşa marşrutunu təşkil etdiyi üçün TAP-ın Avropa Birliyinin enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsinə görə strateji məqsədlərində əsas rol oynayacağı gözlənilir.

*"Xalq qəzeti"*

**2018-ci ildə "Şahdəniz" üzrə fəaliyyətlərə 578 milyon dollardan çox əməliyyat xərcləri və təqribən 1,44 milyard dollar əsaslı xərclər çəkilib. Əsaslı xərclərin böyük əksəriyyəti "Şahdəniz 2" layihəsinə aiddir.**



# bp "Şahdəniz" yatağından qaz hasilatını artırıb

bp-dən verilən məlumata görə, 2018-ci ildə "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam edib.

Ötən il yataqdan 11,5 milyard standart kubmetr qaz və 2,5 milyon ton (təqribən 20,5 milyon barel) kondensat hasil edilib. 2017-ci ildə bu göstərici müvafiq olaraq 10,2 milyard kubmetr qaz və 2,4 milyon ton kondensat olub.

2018-ci ildə "Şahdəniz" yatağından ümumi qaz hasilatı 100 milyard kubmetrə çatdırılıb. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə 48 milyon (ildə təqribən 16 milyard) standart kubmetrdir.

2018-ci ildə Şahdəniz Alfa platformasında SDA11 quyusu qazılıb və tamamlanıb. Bundan əlavə, SDA04 və SDA05 quyularında texniki bütövlüklə bağlı bəzi qazma əməliyyatları da aparılıb.

İstiqlal qazma qurğusu beş sualtı quyunu tamamlayıb – ikisi qərb cinahda, üçü isə şərq cinahda. "Maersk Explorer" qurğusu SDH02A quyusunu tam dərinliyədək qazıb.

Bu iki qurğu "Şahdəniz 2" hasilatı və sonrakı tədrici artım üçün artıq 15 quyu qazıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

2018-ci ilin əvvələrində "Cənub Qaz Dəhlizi" boyunca bütün layihələrdə əldə edilmiş bir sıra mühüm istismar sınaqları və təhvil vermə nailiyyətlərindən sonra 29 may 2018-ci il tarixində Səngəçal terminalında "Cənub Qaz Dəhlizi" layihəsinin rəsmi açılış mərasimi keçirilib. Bunun ardınca 30 iyun 2018-ci ildə "Şahdəniz 2" layihəsindən Türkiyəyə ilk kommersiya məqsədli daşımalar plana uyğun şəkildə başlayıb.

İyulun 30-da yatağın şimal cinahındakı SDC03Z quyusunun ventili açılaraq Şahdəniz Bravo platformasından ilk qaz əldə olunub. Bu da ümumilikdə Xəzər dənizində sualtı quyudan çıxarılan ilk hasilat olmaqla və təhlükəsiz, büdcədən aşağı və cədvəli qabaqlayaraq həyata keçirilməklə çox mühüm bir nailiyyətdir. Hazırda Şahdəniz Bravo qurğularından qaz və kondensat Səngəçal terminalına ixrac olunur.

*"Xalq qəzeti"*



# Şəhid ailələri ilə görüş

***Xəzər Rayon İcra Hakimiyyətində şəhid ailələri ilə növbəti görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı Elşən Salahov, Milli Məclisin deputatı Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, şəhid ailələrinin nümayəndələri, idarə, müəssisə rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Görüşün əvvəlində torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Görüşü giriş sözü ilə açan rayon icra hakimyyətinin başçısı Elşən Salahov dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb. Bildirilib ki, 28 yanvar 2019-cu il tarixində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının bariz nümunəsidir.

Milli Məclisin deputatı Rauf Əliyev çıxış edərək bildirib ki, şəhid ailələrinə göstərilən diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. 1 yanvar 2019-cu il tarixinə 12779 şəhid ailəsi, 119 nəfər 20 yanvar şəhidi ailəsi, 11994 nəfər Qarabağ müharibəsi əlili, 327 nəfər 20 Yanvar hadisələri zamanı əlil olanlar Prezident təqaüdü, 49692 nəfər Qarabağ müharibəsi veteranı müavinətlə təmin olunur. Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərdiyi xüsusi qayğı nəticəsində 2018-ci ildə əvvəlki ilə nisbətən bu kateqoriyadan olan ailələrə 3 dəfə çox-626 mənzil təqdim olunub. İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdlərinin də məbləği ötən dövrdə mütamadi olaraq artırılıb.

Şəhid atası Həsənşah Seyidov, şəhid anaları Ədilə Mirzəyeva, Minəxanım Məmmədova, Natella Mirzəyeva və başqaları çıxış edərək onlara daim qayğı ilə yanaşan ölkəmizin başcısına minnətdarlıq etmiş, bir sıra problemin həlli ilə bağlı arzu və təkliflərini bildiriblər.

Tədbirin sonunda rayon icra hakimiyyəti tərəfindən şəhid ailələrinin üzvlərinə humanitar yardım göstərilib.

*"Xalq qəzeti"*



# Təhlükəli qidalar bazardan ÇIXARILACAQ

**Azərbaycanda qida məhsullarında sağlamlıq üçün təhlükəli maddələr aşkar olunacağı təqdirdə, istehsalçılar həmin məhsulları bazardan geri çağırmalı olacaqlar.**

Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi sədrinin müşaviri Elxan Mikayılov deyib. O bildirib ki, bu cür təcrübə hazırda avtomobil istehsalçıları tərəfindən tətbiq olunur:

"Azərbaycan üçün bu, yenilik olacaq. Əsas mexanizm ondan ibarətdir ki, agentlik və ya istehsalçılar özləri məhsulun tələblərə uyğunsuzluğunu aşkar etsə, o zaman onlar həmin məhsulları geri çağırmalıdırlar".

*"Xalq qəzeti"*



**Binəqədi rayonu ərazisində yerləşən qəsəbələrin yollarının yenidən qurulması işlərinə start verilib.**



# Küçə və yollarda təmir-bərpa işləri



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, kompleks tədbirlər ilk mərhələdə Binəqədi rayonunun Binəqədi, Rəsulzadə, Biləcəri, Sulutəpə və 28 May qəsəbələrinin 15-ə yaxın küçəsini və məhəllədaxili yolları əhatə edir.

Binəqədi qəsəbəsində hazırda ümumi uzunluğu 6 km-dən çox olan 4 yolda, Rəsulzadə qəsəbəsində 2,5 km uzunluğa malik 5 küçə və məhlədaxili yollarda təmir-tikinti işləri həyata keçirilir. Biləcəri qəsəbəsində isə indiyədək 8 min kvadratmetr sahədə 4 küçədə, həmçinin 1 May yaşayış massivinin yolunda təmir işləri həyata keçirilib və bu istiqamətdə işlər hazırda da davam etdirilir.

Binəqədi qəsəbəsində 1-ci mədən, 2-ci mədən və 3-cü mədən küçələrində, Rəsulzadə qəsəbəsində Zahid Qəmbərov, Aydınbəyov, Mahir Qədimov, Koroğlu və digər küçələrdə, Biləcəri qəsəbəsində isə Aşıq Şəmşir, Qafur Məmmədov, Xəqani, Xudadat bəy Məlikaslanov küçələri və digər yollarda təmir işləri həyata keçirilir. Sadalanan küçələr boyu işlər yekunlaşdıqca təmirə ehtiyacı olan digər yollarda da təmir-bərpa işləri həyata keçiriləcək.

Daha sonra yollar və küçələr boyu avtonəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün zəruri olan yerlərdə yeni yol nişanları quraşdırılacaq, yolcizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkiləcək.

# “Xocalı – şahidlərin gözü ilə” sənədli-tarixi kitabı ingilis və rus dillərində nəşr olunub

***“Xocalı – şahidlərin gözü ilə” sənədli-tarixi kitabı ingilis və rus dillərində nəşr olunub.***

Kitabda Xocalı soyqırımının canlı şahidlərinin xatirələri toplanıb.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, redaktoru “Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, buraxılışa məsul Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, tərtibçisi isə “Azərbaycan” qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlidir.

Kitab ingilis və rus dillərinə Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən tərcümə olunaraq nəşr edilib.




"Xocalı şahidləri danışır” kitabı professor Əli Həsənovun “Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması” adlı məqaləsi ilə başlayır. Məqalə XX əsr ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə və soyqırımı cinayətlərindən, ölkəmizə qarşı ərazi iddialarından bəhs olunur.

Bu nəşrlərin dünyanın bir çox ölkələrində, beynəlxalq kitab sərgilərində təqdimatlarının təşkil olunması, xarici universitetlərə, kitabxanalara, eləcə də kütləvi informasiya vasitələrinə çatdırılması nəzərdə tutulur.

“Xocalı – şahidlərin gözü ilə” sənədli-tarixi kitabının nəşri Xocalı soyqırımının tanıdılması, bu istiqamətdə araşdırmaların aparılması, faciə ilə bağlı xatirələrin gələcək nəsillərə ötürülməsi, yaddaşların təzələnməsi baxımından önəmli addımdır.

***AZƏRTAC***

**Xocalı soyqırımının törədilməsindən 27 il keçir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistlərinin Xocalıda törətdikləri soyqırımı, insan təfəkkürünə sığmayan vəhşilikləri Azərbaycan xalqının tarixində qanlı iz qoyub. Bu qırğının dəhşətləri, erməni şovinistlərinin qadın, uşaq, qoca demədən günahsız insanları amansızlıqla qətlə yetirmələri bu gün də insanı dərindən sarsıdır. Xocalı soyqırımı erməni silahlı birləşmələrinin Azərbaycana hərbi təcavüzünün ən qanlı səhifəsidir. Aylarla mühasirədə saxlanılan bu şəhər erməni faşistləri və onların havadarları tərəfindən bir gecənin içində yerlə-yeksan edildi.**



# Abbas İSMAYILOV: Xocalı soyqırımı kimi dəhşətli cinayətə göz yummaq böyük haqsızlıqdır, erməni faşizmini dəstəkləməkdir

AZƏRTAC Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici əlaqələr üzrə baş mütəxəssisi Abbas İsmayılovun Xocalı soyqırımı barədə məqaləsini təqdim edir.

Azərbaycanlıları özlərinin əbədi düşməni hesab edən ermənilər məskunlaşdıqları torpaqlarımızda o gecə azərbaycanlı qanı axıtdılar, XIX əsrdə Qarabağ torpaqlarında onlara yer vermiş azərbaycanlılara qarşı insanlığa xas olmayan vəhşiliklər törətdilər. Xocalı adlı bir yurd yerini yer üzündən sildilər. Xocalı sakinləri amansızlıqla qətlə yetirildi, əsir götürüldü, şəhər oda qalandı. Çox təəssüf ki, dünya hələ də buna göz yumur. Tarixin bəlkə də ən qanlı, ən qəddar, ən böyük cinayətlərindən birini yaşayan xalqımız artıq 27 ildir ki, dünya birliyinin susqunluğuna son qoyulmasını, Xocalı soyqırımına obyektiv qiymət verilməsini gözləyir. 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 yerli sakinin qətlə yetirildiyi, 8 ailənin tamamilə məhv edildiyi, 25 uşağın hər iki valideynini, 130 uşağın isə valideynlərindən birini itirdiyi, 487 nəfərin (76-sı uşaq) yaralandığı, 1275 nəfərin əsir götürüldüyü (onlardan 150-sinin taleyi hələ də məlum deyil) bu dəhşətli cinayətə və vəhşiliyə göz yummaq son dərəcə böyük haqsızlıqdır, erməni faşizmini dəstəkləməkdir.

Təəssüflə qeyd etmək lazımdır ki, Xocalı faciəsi baş verdiyi dönəmdə ölkəmizin səbatsız rəhbərliyinin səriştəsiz siyasəti nəticəsində nəinki soyqırımını törədən erməni faşistləri qınağa tuş gəlmədi, heç faciənin miqyası, səbəbkarları barədə dövlət səviyyəsində araşdırma belə aparılmadı. Məhz ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra onun təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də “Xocalı soyqırımı günü haqqında” qərar qəbul etdi. Həmin sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı.

O faciədə Azərbaycanın 7 Milli Qəhrəmanı vuruşaraq canlarını Vətən uğrunda qurban veriblər. Allahverdi Bağırovun yalnız “Hollywood” filmlərində gördüyümüz şücaəti nəticəsində 1000-dən çox Xocalı əsiri ermənilərdən azad edilib, Şöhrət Həsənov son nəfəsinə qədər insanların çayı keçməsinə kömək edib, Çingiz Mustafayev ermənilərin törətdikləri vəhşilikləri göz yaşları içində videolentə alıb. Bunlar Azərbaycanın necə mərd oğullar yetişdirdiyinə canlı misaldır. Bu faciənin yüz illər sonra da gələcək nəsillərin xatirəsindən silinməməsi üçün bugünkü nəsil əlindən gələni etməyə borcludur.

Ulu Öndərin ölkə həyatının bütün spektrlərini əhatə edən daxili və xarici siyasəti sayəsində Xocalı faciəsinin dünyaya tanıdılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, bütün beynəlxalq qurumlarda ədalətli qiymət verilməsi istiqamətində göstərilən səylər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının tapşırığı əsasında hazırda Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri Xocalı soyqırımının xarici ölkələrdə və onların parlamentlərində tanınmasıdır. Xocalı soyqırımını qətliam kimi Pakistan və Sudan, parlament səviyyəsində Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya və Şotlandiya tanıyıb, həmçinin ABŞ-ın 22 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib. Digər ölkələr bu günü “Xocalı qətliamı” günü kimi anırlar.




2012-ci il noyabrın 20-də İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Cibutidə keçirilmiş 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində dövlət qurumları, gənclər təşkilatları və ali təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunan təqdimatlar təşkil edilir. Bu kampaniya Xocalı faciəsi barədə həqiqətləri qlobal səviyyədə dünya ictimaiyyətinə çatdırmaq üçün böyük əhəmiyyətə malikdir. Bu məqsədlə müxtəlif kommunikasiya vasitələri və resurslarından, o cümlədən mediadan, internetdən və canlı tədbirlərdən fəal şəkildə istifadə edilir.

Fevralın 26-da baş verən dəhşətlər yalnız bizim torpaqlarımızın işğal edilməsinə bir cəhd deyildi. Ermənilər, həmçinin bizim birliyimizə, ruhumuza, vətənpərvərlik hissimizə və tariximizə ləkə salmaq istəyirdilər. Onlar öz hücumları ilə bizim qəlbimizdə qorxu xofu yaratmaq, xalqımızın daxildən parçalanmasına, sarsılmasına nail olmaq istəyirdilər. Lakin bunların heç biri baş tutmadı. Biz ayağa qalxdıq, biz ayaqdayıq, biz öz milli kimliyimizi, ləyaqətimizi qoruyub saxlaya bildik, biz öz həqiqətimizi dünyaya yaymaqda israrlıyıq. Biz bir xalq kimi bizə aid olanı - ədalətin zəfərini və torpaqlarımızın geri qaytarılmasını tələb edirik. O günlər daim hər bir azərbaycanlının yaddaşında dəhşətli xatirələr kimi qalacaq, amma həmin gün canlarını qurban verən bacı və qardaşlarımızın ruhunu şad etmək üçün biz Azərbaycanımızın gələcəyini daha parlaq və daha firavan etməyə borcluyuq.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 49** **Bakı şəhəri, 12 fevral 2019-cu il**

**“Elmi fəaliyyətin proqram məqsədli maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

“Elm haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 noyabr tarixli 1689 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

“Elmi fəaliyyətin proqram məqsədli maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.cabmin.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 50** **Bakı şəhəri, 13 fevral 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısının müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2010-cu il 25 iyun tarixli 123 nömrəli və “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası”nın təsdiq edilməsi barədə” 2010-cu il 25 iyun tarixli 124 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1273-VQD nömrəli Qanununun tətbiqi və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 oktyabr tarixli 305 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 567; 2016, № 8, maddə 1449; 2018, № 6, maddə 1364) ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısının müəyyən edilməsi Qaydası”nın 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“7. Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər siyahıda müəyyən edilmiş dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə işgüzar münasibətlərə və əməliyyatlara, o cümlədən ilkin çıxış və ya təyinat məntəqəsinin həmin dövlətin (ərazinin) olduğu pul vəsaitlərinin istənilən şəxs tərəfindən qəbul olunması və köçürülməsi ilə bağlı əməliyyatlara xüsusi diqqət yetirməli, bu cür əməliyyatların açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmadıqda onların təyinatını və mahiyyətini aydınlaşdırmalı və bununla əlaqədar yazılı təhlil hesabatı tərtib etməlidirlər. Tələb olunduğu təqdirdə, hesabat qanunla müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına, auditora, cinayət təqibini həyata keçirən orqanlara və ya nəzarət orqanlarına təqdim edilməlidir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 568; 2016, № 8, maddə 1449, № 9, maddə 1585, № 10, maddə 1695; 2017, № 4, maddə 647) ilə təsdiq edilmiş “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası”nın 7.2-ci və 7.3-cü bəndlərində “102, 214, 214-1, 215, 219, 219-1, 277, 278, 279, 280 və ya 282-ci” sözləri “102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282-ci və ya 283-1-ci” sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 51** **Bakı şəhəri, 13 fevral 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 mart tarixli 55 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 noyabr tarixli 682 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 mart tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 260; 2013, № 10, maddə 1234; 2017, № 4, maddə 620; 2018, № 6, maddə 1370) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları”nın 15-ci hissəsində “Azərbaycan Respublikasının Konstitusiyasında və Qanunun 9.2-ci maddəsində” sözləri “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda” sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

# Səfir: AZƏRTAC-ın iki beynəlxalq media qurumuna rəhbərlik etməsi ona olan etimadın göstəricisidir

***Bu ilin noyabrında Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) sədrlik AZƏRTAC-dan Koreya Respublikasının Yonhap agentliyinə keçəcək. Hazırda tərəflər təşkilatın Seulda keçiriləcək XVII Baş Assambleyasına hazırlıq işləri görürlər.***

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op bununla bağlı məsələləri müzakirə ediblər.

Qeyd olunub ki, 2015-ci ildə əməkdaşlıq müqaviləsi imzalayan AZƏRTAC və Yonhap hazırda uğurlu informasiya mübadiləsi həyata keçirir, OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində birgə səylər göstərirlər. Aslan Aslanov diqqətə çatdırıb ki, bu ilin aprelində Vyetnamda OANA İcraiyyə Komitəsinin növbəti iclası keçiriləcək. İclasda Seulda baş tutacaq Baş Assambleyaya hazırlıq məsələləri müzakirə olunacaq. Məlumat verilib ki, Yonhap-ın 2019-2022-ci illər üçün OANA sədrliyinə namizədliyi təşkilatın 2016-cı ilin noyabrında Bakıda keçirilən Baş Assambleyasında 35 ölkədən olan 40-dan artıq üzv agentlik tərəfindən qəbul edilib. Bu məsələdə Yonhap-a AZƏRTAC böyük dəstək verib.



AZƏRTAC-ın sədrlik etdiyi Dünya Xəbər Agentlikləri Konqresində də Koreya Respublikasının agentliyi fəal tərəfdaşlardan biri kimi tanınır.

İki ölkə arasında yüksələn xətlə inkişaf edən əlaqələrdən danışan Kim Tonq Op media sahəsində də əməkdaşlığın genişləndiyini deyib. O, AZƏRTAC-ın iki böyük beynəlxalq media qurumuna rəhbərlik etməsini agentliyə olan etimadın göstəricisi olduğunu vurğulayıb. Diplomat Yonhap ilə AZƏRTAC arasındakı səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

# Ermənistan atəşkəs rejimini pozmaqda davam edir

**Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım, Aşağı Əskipara, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# XAÇMAZ: sürətli və hərtərəfli sosial-iqtisadi inkişafın yeni mərhələsi

**2018-ci il bütün sahələr üzrə respublikamız üçün uğurlu oldu. Bu uğurların əldə olunmasında isə təbiidir ki, ölkəmizin hər bir şəhərinin, rayonunun, qəsəbə və kəndinin özünəməxsus payı vardır. Xaçmaz da bu cəhətdən xüsusilə fərqlənən rayonlardandır. Təqdirəlayiq haldır ki, xaçmazlılar əvvəlki illərdə nail olduqları yüksək inkişaf tempini 2018-ci ildə də uğurla davam etdirmişlər. Rayon icra hakimiyyəti aparatı digər yerli orqanlarla birlikdə ölkədə həyata keçirilən siyasi xəttə əsaslanaraq, iqtisadi inkişafı sürətləndirmək, ictimai-siyasi sabitliyi qorumaq, qanunların icrasını təmin etmək istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmişdir.**





Ölkə Prezidenti İlham Əliyevin sayca 8-ci dəfə Xaçmaza səfəri və bu səfər çərçivəsində açılışını həyata keçirdiyi infrastruktur layihələri bu gün də rayon sakinləri tərəfindən böyük minnətdarlıq hissi ilə xatırlanmaqdadır. Mətbuatdan da bəlli olduğu kimi, Xaçmaza səfəri zamanı cənab Prezident ümumi uzunluğu 29 kilometr olan Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun açılışını etdi. Xatırladaq ki, 8 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən bu yol bütövlükdə regionun sosial-iqtisadi inkişafına töhfə verir, turizm axınının davamlı olmasını təmin edir və yolboyu yerləşən yaşayış məntəqələrində yaşayan sakinlərə əlavə iqtisadi imkanlar açır.

Prezident İlham Əliyevin ötən il açılışını etdiyi "Azərxalça" ASC-nin Xaçmaz filialında bu gün 162 nəfər çalışır. Orada 43 dəzgahda müxtəlif ölçülü Azərbaycan xalçaları toxunmaqdadır. Rayon əhalisinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə də bir sıra çox mühüm obyektlərin açılışı həyata keçirildi. Xaçmaz səfəri çərçivəsində Prezident İlham Əliyev Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası istiqamətində olan Xaçmaz-Xudat avtomobil yolunun açılışını da etdi. 54 min nəfər əhalisi olan 59 yaşayış məntəqəsini birləşdirən bu yol yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa, bölgədə turizmin inkişafına xidmət etməklə yanaşı, Yalama sərhəd-keçid məntəqəsi ilə rahat nəqliyyat əlaqəsini də yaratmış oldu. Xatırladaq ki, bu yol beynəlxalq əhəmiyyətli bir yoldur və Şimal-Cənub Nəqliyyat Dəhlizinin tərkib hissəsinə aiddir.

Həyata keçirilmiş tədbirlər sayəsində ötən il rayonda 1321 yeni iş yeri açılmışdır ki, bunlardan 1245-i daimi iş yerləridir. Rayon üzrə ÜDM istehsalının həcmi 592 milyon manata çatdırılmışdır ki, bu da 2017-ci illə müqayisədə 10 faiz çoxdur. Hesabat dövründə rayon üzrə sənaye məhsulu istehsalının həcmi artaraq 62,1 milyon manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 247,5 milyon manat, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 104,5 milyon manat, pərakəndə əmtəə dövriyyəsi 458,3 milyon manat, əsas kapitala yönəlmiş investisiyaların həcmi 113,4 milyon manat, adambaşına pul gəlirləri 3294,5 manat, orta aylıq əməkhaqqı 336,9 manat təşkil etmişdir. İl ərzində rayonda ümumi sahəsi 21018 kvadratmetr olan mənzil tikilib istifadəyə verilmişdir.

Xaçmaz respublikanın iri kənd təsərrüfatı rayonlarındandır. Ötən il rayonun fermer təsərrüfatlarında da əvvəlki illərlə müqayisədə həm bitkiçilik, həm də heyvandarlıq sahəsində uğurlu nəticələr əldə olunmuşdur. 17906 hektar taxıl sahəsinin hər hektarından orta hesabla 35 sentner, 5892 hektar arpa sahəsinin hər hektarından isə 27,4 sentner məhsul toplanıb. 11 toxumçuluq təsərrüfatında 4332,9 ton yüksək keyfiyyətli toxum istehsal olunmuşdur. 2019-cu ilin məhsulu üçün 19223 hektarda taxıl, 5786 hektarda isə arpa səpini aparılıb. Bu isə əvvəlki illə müqayisədə 1293 hektar çoxdur. Taxıl istehsalını daha da artırmaq məqsədilə xaçmazlı fermerlərə və rayonun toxumçuluq təsərrüfatlarına dövlət tərəfindən 2 milyon 392 min manat subsidiya verilmişdir. Hazırda rayonun fermer təsərrüfatlarında 21759,3 hektar meyvə bağı vardır ki, onun da 1170,3 hektarı 2018-ci ildə salınmış yeni bağlardır. Ötən il Xaçmaz bağbanları ümumilikdə 105268,9 ton meyvə istehsal ediblər. İstehsal olunan min tonlarla alma, armud, heyva, şaftalı, ərik, gilas, albalı, gavalı, alça, qoz, fındıq, badam, nar, xurma, əncir, zoğal, əzgil, üzüm və digər məhsulların bir hissəsi rayonun emal müəssisələrinə, böyük bir hissəsi isə respublika və Rusiya bazarlarına çıxarılıb. İl ərzində rayon üzrə ümumi tutumu 20,6 min ton olan 11 soyuducu anbar, 5 fındıq emalı müəssisəsi və 11 fındıq qəbulu müəssisəsi fəaliyyət göstərib. Sahələrdən toplanmış 84967 ton tərəvəz və 7812,6 ton bostan məhsulları da fermerlərin illik büdcəsinin artmasında əhəmiyyətli yer tutmuşdur.

Rayonun fərdi təsərrüfatlarında, eləcə də iri hevandarlıq komplekslərində saxlanılan 8021 baş qaramal müasir tələblər səviyyəsində bəslənilməklə onlardan 4904 baş sağlam buzov alınmışdır. Hansı ki, süni mayalanma yolu ilə doğulan 2774 baş buzova görə fermerlərə dövlət tərəfindən 277400 manat məbləğində subsidiya verilməsi nəzərdə tutulur. Mal-qaranın müxtəlif xəstəliklərdən qorunması məqsədilə rayon baytarlıq idarəsi tərəfindən vaxtaşırı müayinələr aparılaraq vaksinlər vurulub. Sevindirici haldır ki, son vaxtlar arıçılıq təsərrüfatları da xüsusi dövlət dəstəyi ilə əhatə olunub. Ötən il rayon üzrə 154 nəfər arıçıya istifadəsində olan 4757 arı ailəsi üçün 47570 manat subsidiya verilmişdir.







Əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də Xaçmazda geniş həcmli tikinti- quraşdırma və abadlıq işləri görülmüşdür. Belə ki, şəhərin əsas prospekt və küçələrində ümumi uzunluğu 26200 metr olan beton səki daşı qoyulmuş, şəhər qəbiristanlığının giriş qapısında şərq memarlıq üslubunda olan minarə ucaldılmış, Xaçmaz şəhərində yeni yerüstü piyada keçidi inşa edilmiş, "Bakı" prospektində yerləşən və memarlıq üslubuna görə ölkədə bənzəri olmayan Heydər Əliyev bulaq kompleksində əsaslı yenidənqurma işləri aparılmışdır. Aparılan yenidənqurma işləri bulaq kompleksinin möhtəşəmliyini daha da artırmışdır. Yenidənqurma işləri "İlham bulağı"nda da aparılmışdır.

Diqqət çəkən tikinti nümunələrindən biri rayon ərazisindəki "Çənlibel" istirahət parkında ucaldılan "Ana dili müəllimi" abidə kompleksinin inşasıdır. Dörd metr hündürlüyündəki abidənin arxasında kitab şəkilli simvolik pannoda ümummilli lider Heydər Əliyevin "Mən dünyada müəllimdən yüksək ad tanımıram" və "Ana dili xalqın milli sərvətidir" kəlamları yer alıb. Abidənin ətrafında isə Azərbaycanın 38 görkəmli yazıçı və şairinin kitablarının qranitdən hazırlanmış təsvirləri yerləşdirilib. "Şəxsiyyətlər muzeyi" ərazisində heykəltəraş Ömər Eldarova, tanınmış bəstəkar Ramiz Mirişliyə və Dərbənd şəhərində anadan olmuş, Sovet dövründə hava hücumundan müdafiə dairəsinin zenit-artilleriya qoşunlarının komandanı vəzifəsinə yüksələn və doqquz il ölkənin rabitə naziri vəzifəsində çalışmış general-leytenant Hüseyn Rəsulbəyova tuncdan büstlər ucaldılmışdır. Beləliklə açıq səma altında dahi şəxsiyyətlərə aid abidələrin sayı 59-a çatdırılmışdır.

Xaçmaz-Niyazabad avtomobil yolunun hərəkət hissəsi və piyada yolunun ümumilikdə 23800 kvadratmetr ərazisinə asfalt örtüyü vurulmuş, rayonun paytaxt istiqamətində yeni "Giriş qapısı" inşa edilmişdir. Şəhərin Heydər Əliyev parkı yaxınlığında olan beşmərtəbəli yaşayış binalarının fasad hissəsi mili arxitektura üslubunda üzlənmiş, N.Nərimanov, Səid Qurbanov və "Qələbə" küçələrində isə çoxmənzilli yaşayış binalarının dam örtrüyü yenisi ilə əvəz olunmuşdur.

İlin diqqət çəkən inşaat layihələrindən biri də tikintisi davam etməkdə olan "Saatlar qülləsi"dir. Səkkiz mərtəbəli bu qüllə şəhərin girişində yerləşən "Çənlibel" parkına əlavə gözəllik verəcəkdir. Qüllənin hər birinin sahəsi 100 kvadratmetr olan ilk 4 mərtəbəsi uşaqların ixtiyarına veriləcək. Yuxarı mərtəbələr isə şəhəri seyr etmək üçündür.

Xaçmazı bu gün parklar və muzeylər şəhəri adlandırmaq olar. Xatırladaq ki, son illər rayonda ümumi sahəsi 20 hektara yaxın olan 7 park salınıb.

2018-ci il ərzində rayonun Nabran, Şimali, Günəşli, Aşağıoba, Vələmir, Xuray, Pərdiqıran, Qaracikzeyid, Aslanoba, Meşəli, Sahillər, Samurçay, Seyidli, Dalğalı, Krasnı Xutor, Turist, Çaxçaxlı və Hacıəlibəy kəndlərinin yeni salınmış məhəllələrinin 2144 sakininin mənzili qazla təmin olunmuşdur. İstismar müddəti bitmiş 1173 ədəd qaz sayğacı yeniləri ilə əvəz edilmişdir. Rayonun yüksək gərginlikli və paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması istiqamətində də bir sıra əhəmiyyətli işlər görülmüşdür.

Cari tədris ilində Prezident İlham Əliyevin sərəncamı ilə rayonun Aşağı-Ləgər, Çılğır, Gəncəli, Bayoba və Əzizli kəndlərində modul tipli yeni məktəblər quraşdırılaraq istifadəyə verilmişdir. Ölkə Prezidentinin 2 fevral 2018-ci il tarixli sərəncamı ilə Alıc-qışlaq, Qaracəlli, Cığatay və Ərəb kəndlərində daha 4 modul tipli məktəbin quraşdırılması üçün vəsait ayrılmışdır. Hazırda Xaçmaz şəhər 5 saylı tam orta məktəbin yeni binasının tikintisi üçün hazırlıq işləri aparılır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təhsil sahəsində çalışan Sevinc Sədullayeva və Vilayət Əsgərov, poçt-rabitə sahəsində xidmət göstərən Ənvər Məhyəddinov və nümunəvi xalçaçı Kəbirə Vəlibəyova "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Yuxarıda sadalananlardan göründüyü kimi, 2018-ci il Xaçmaz rayonu üçün bütün sahələrdə sürətli və hərtərəfli sosial-iqtisadi inkişaf ili olmuşdur. Bu isə qarşıdakı illərdə daha ciddi uğurlar əldə olunması üçün çox yaxşı təməldir.

***Q.CƏFƏROĞLU,***
***"Xalq qəzeti"***

---

# Nəsiminin bədii-fəlsəfi irsində kamil insan təlimi



**Böyük mütəfəkkir şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində fəlsəfi şeirin özülünü qoymuş, bədii sözü forma və məzmunca zənginləşdirmiş ustad sənətkar, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən ustad ədibdir. Nəsimi yaradıcılığı nəinki Azərbaycan ədəbi mühitinin formalaşmasına, eləcə də ümumbəşəri dəyərləri, insanın fövqəlbəşəri varlıq olmasını tərənnüm etməklə dünya ədəbiyyatına böyük təsir göstərmişdir.**

Nəsimi öz əsərlərini Yaxın və Orta Şərqdə geniş yayılmış üç dildə: ərəb, fars və Azərbaycan dillərində yaradan ilk böyük söz ustasıdır. O, bu dillərdə divanlarını ərsəyə gətirmişdir. Müxtəlif dillərdə yazıb-yaratmaq qabiliyyəti şairə öz mütərəqqi fikirlərini geniş təbliğ etmək imkanı yaratmış, xalqlar arasında mədəni əlaqələrin və ədəbi mühitin inkişafında mühüm rol oynamışdır. Ötən 7 əsr dönə-dönə sübut etmişdir ki, Nəsimi öz yaradıcılığı ilə bütün bəşəriyyəti düşündürən mövzu və ideyalara öz söz möhürünü vurmuş nəhəng ədəbi sima, bu dəyərlər yolunda canından belə keçmiş gerçək qəhrəmandır.

2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında İmadəddin Nəsiminin ölümünün 600-cü ildönümümünün bəşəri bir tarix kimi yad edilməsi, bu il isə böyük ədəbi klassikimizin anadan olmasının 650 illiyinin ölkəmizdə və beynəlxalq aləmdə daha geniş və təntənə ilə qeyd edilməsinin qərara alınması dünya ədəbiyyatı xəzinəsini zənginləşdirmiş Azərbaycan şairinin irsinin əbədiyaşarlığının, şəxsiyyətinin ölməzliyinin göstəricisidir. Prezident İlham Əliyevin şairin növbəti yubileyi şərəfinə 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan etməsi xalqımızın və dövlətimizin öz dahi oğluna verdiyi layiqli qiyməti bütün dünyaya nümayiş etdirir.

Nəsimi insanların qəlbini, onların mənəvi dünyasını misilsiz ustalıqla bədii-fəlsəfi araşdırmadan keçirmiş, nəticədə, insanı kainatın ən kamil varlığı kimi ulu Yaradanın mahiyyətinə yaxınlaşdırmış təlimin poetik formulunu yaratmışdır. Nəsiminin insanlıq, kamil şəxsiyyət haqqında təsəvvürləri mükəmməl və gerçəkliyə uyğundur. "Bulunmaz" rədifli qəzəlində şair hünər sahibi olmaq, xalqa əməllə xidmət etmək kimi bəşəri ideyaya öz təfsirini belə verir:

*Hər bihünər insafı yox, uş mənsəbi tutdu,*
*Sahib hünərə mənsəbü idrar bulunmaz,*
*Xəlqin əməli azdı, könül yıxıcı ögüş,*
*Bir xəstə könül yapıcı memar bulunmaz.*

Nəsimi belə hesab edirdi ki, nəfsi öldürmək kamil insana məxsus ən böyük bir mənəvi qəhrəmanlıqdır: "Nəfsə qalib gəlmək Xeybər qalasını almaqdan çətindir". Nəfs düşkünü olan insan isə adi bir heyvandan seçilmir. Eşq yolunu tutan öz ruhuna qida verən, könlündə ilahi nuru gəzdirən, idealını arayıb axtaran insandır. İkilik pərdəsini aradan qaldıran insan sirləri duya bilər, gizli aləmi anlamaqla haqqa qovuşar.

Nəsimi ideal bir biçimdə insanın bəşəri keyfiyyətlərini incələyir, mənalandırır, poetik səviyyəyə yüksəldir. Nəsimiyə görə, "mən" zirvədir, elə bir gözəllikdir ki, əgər insan özünü dərk edərsə, o ülviyyətə yüksələr. Şairin fikrincə, insan bütöv bir aləmdir, külli kainatdır. Nəsimi əsərlərində insanın ən gözəl xüsusiyyəti özünü dərk etməsidir. O, yaradıcılığı boyu insanı özünü dərk etməyə çağırmışdır. Nəsiminin "Bəhrüləsrar" adlı fəlsəfi qəsidəsi bu baxımdan xüsusi seçilir. Bu əsər dərin fəlsəfi məzmunu ilə bərabər, həm də önəmli nəsihət və çağırışlarla zəngindir. Bu mənzumədə şair insanı özünü anlamağa, həyat və ölüm haqqında düşünməyə, xəyyamanə bir ruh ilə dünyanın başdan-başa acı və şirinliklərlə dolu olduğunu dərk etməyə səsləyir. Nəsimi anladır ki, ömrünü sərvət qazanmağa sərf edənlər əzab və gərəksiz yükdən başqa heç bir şeyə sahib ola bilməzlər:

*Bir ovuc tozdur küləklər qarşısında*
*bu bədən*
*Ömrümüz qor tək ərir hər an*
*günəşdən, şölədən*
*İnsan üçün mərifətdən özgə*
*yoxdur bir bəzək*
*Aqil insan zər üçün öz ömrünü*
*verməz hədər.*

Nəsimi yaradıcılığı zaman-zaman işıqlı ideyalar qaynağı kimi müasir sayılmış, yeni nəsillərin mükəmməl tərbiyəsində mənəvi zənginlik mənbəyinə çevrilmişdir. Bu gün gənc nəslin tərbiyəsində Nəsimi yaradıcılığı yenə kamil insan formulunu diqtə edir.

***Prezident İlham Əliyevin şairin növbəti yubileyi şərəfinə 2019-cu ili ölkəmizdə "Nəsimi ili" elan etməsi xalqımızın və dövlətimizin öz dahi oğluna verdiyi layiqli qiyməti bütün dünyaya nümayiş etdirir.***

Bu mənəvi yüksəliş təlimi zəmanəmizdə də ideal insan şərəfinə heyranedici bir himn kimi səslənir. Belə bir gözəllik və qüdrət yalnız özünü tanımış, bəşərin mahiyyətinə varmış kamil insanlara xasdır. Nəsiminin əsərlərində əksini tapmış özünü tanımaq yolları, yetkinliyə çatmaq bacarığı, üstün dəyərləri üzə çıxarmaq və onlara yön vermək üsulları çağdaş elmi-pedaqoji düşüncənin əsas ideyaları ilə çox uzlaşır.

Böyük sələfi Nizami Gəncəvidən sonra ədəbiyyatımızda humanizm, ədalət ideyalarının dönməz carçılarından biri olmuş Nəsiminin zəngin bədii-fəlsəfi irsi insanlığa dəyişdirici, saflaşdırıcı gücü bugün də önəmli və təsirlidir. Şairin dərin humanizmini qlobal-bəşəri mahiyyətə yüksəldən poetik məharəti, dilinin şirinliyi və axıcılığı, heyrətamiz şeiriyyət ahəngi, şübhəsiz və ilk növbədə, Nəsiminin milli özünəməxsusluğuna əlavə rövnəq verdiyi doğma xalqına bizim günlərdə də mənəvi zənginlik gətirir, soydaşlarımızın estetik zövqünün yüksəlməsinə xidmət edir.

Yaşadığı dövrün xalq dilinin üslub-qrammatik imkanlarından yaradıcı şəkildə bəhrələnmək və yazılı ədəbi dilin formalaşmasına təsiri araşdırmaq baxımından da Nəsimi şeiri misilsiz bir qaynaqdır. Nəsimi dilinin mükəmməlliyi, ən incə mətləbləri ifadə etmək qüdrəti belə bir dilin, ən azı, özünədək min illik bir inkişaf keçdiyinin mötəbər təsdiqidir. Bu baxımdan Nəsimi şeirində rəqibi dəqiq və tutarlı cavablandırmaq məharəti görün necə incəliklə ifadə edilmişdir:

*Rəqib məndən sorur: nəndir sənin yar?*
*Rəfiqimdir, həbibimdir – nəm olsun!*

Nəsimi yaradıcılığında dini-fəlsəfi mövzunu dünyəvi ideya axtarışları üzvi surətdə tamamlayır. Gerçəkliyi əks etdirən şeirlərdə səmimiyyət və təbiilik daha qabarıqdır. Belə poetik nümunələr xəlqiliyi, dil-ifadə və üslub gözəlliyi ilə fərqlənir. İnsan səadəti, onun ruhi sərbəstliyi, mənəvi azadlığı həmin şeirlərin aparıcı xəttini təşkil edir. Şəxsiyyətin doğru yolda olması, daxili bütövlüyü, haqqa tapınması Nəsiminin estetik axtarışlarında başlıca hədəfdir:

*Qanı bir əhdi peyman bütün yar,*
*Qanı bir qövlü gerçək, doğru dildir.*
*Qanı, həqqi bilən bir gercək ər kim,*
*Ola doğru anın dilində göftar?*

Nəsimi irsinin qorunması və öyrənilməsi istiqamətində ölkəmizdə zəruri işlərin önəmli bir hissəsi uğurla gerçəkləşdirilmişdir. Bu yöndə işlərin davamına dövlət səviyyəsində çox böyük diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 15 noyabr 2018-ci il tarixli sərəncamı görkəmli şairin ədəbiyyat və ictimai fikir tariximizdə tutduğu önəmli mövqeyi bir daha təsdiq edir.

Həmin sərəncamda Nəsimi irsinin tarixi əhəmiyyəti və çağdaş dəyəri çox yüksək dəyərləndirilir: "Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir".

Ölkə Prezidenti İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi isə şairə onun Vətənində 6 əsr sonra qurulmuş müstəqil dövlətin ümummilli səviyyədə verdiyi dəyərin, xalqımızın öz dahi oğluna bəslədiyi ehtiramın ən yüksək ifadəsidir.

***Ruhəngiz ƏLİYEVA,***
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## Mikayıl CABBAROV: Azərbaycanda Vergi Ombudsmanı institutunun yaradılması qərara alınıb

***❒ Vergilər Nazirliyində 2018-ci ilin yekunlarına və 2019-cu ildə vergi orqanları qarşısında duran vəzifələrə həsr edilmiş geniş tərkibli kollegiya iclası keçirilib.***




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov nazirliyin fəaliyyətinin təkcə fiskal funksiyalarla məhdudlaşmadığını, vergi xidmətinin iqtisadiyyatın dövlət tənzimlənməsində mühüm rol oynadığını və onun sahibkarlığın inkişafında səmərəli bir tənzimləmə aləti olduğunu vurğulayıb. 2018-ci ilin yeni vəzifələrin və iş prinsiplərinin icrası, tətbiqi baxımından çox əhəmiyyətli dövr olduğunu deyən nazir ötən il vergi sistemində struktur və kadr islahatlarının aparıldığını, inzibatçılıqda yeni prinsiplərin tətbiq edildiyini, qanunvericiliyin təkmilləşdirildiyini diqqətə çatdırıb.

Sonra vergilər nazirinin müavini İlkin Vəliyev və nazirliyin departament rəhbərləri 2018-ci ildə görülmüş işlər, qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək istiqamətində həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər. Qeyd edilib ki, ötən il vergi daxilolmaları 7 milyard 415 milyon manat təşkil etməklə nəzərdə tutulmuş proqnoz tapşırıqları tam icra edilib, qeyri-neft sektorundan daxilolmalar əvvəlki ilə nisbətən artıb, regionların inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası nəticəsində regionlar üzrə proqnoz tapşırıqlarına 114 faiz əməl edilib. Dövlət büdcəsinə artıq ödəmələrin həcmi il ərzində 503,7 milyon manat və ya 21,4 faiz azaldılıb. Vergi yoxlamalarının sayının əvvəlki ilə nisbətən 3,4 dəfə azaldılmasına baxmayaraq, risklərin idarə edilməsi sistemi əsasında bir yoxlamaya düşən hesablamada 2 dəfəyədək artım qeydə alınıb.

Kollegiya iclasına yekun vuran M.Cabbarov 2019-cu il üçün vergi orqanlarının qarşısında duran əsas məsələlərə toxunaraq bildirib ki, vergi sistemində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığında rəqəmsal texnologiyalardan daha geniş istifadə olunması, vergi qanunvericiliyinin tətbiqi sahəsində vergi nəzarətinin və auditin keyfiyyətinin yüksəldilməsi, habelə vergi işçilərinin peşəkarlıq səviyyəsinin artırılması əsas prioritet istiqamətlər olacaq.

İri, orta və kiçik sahibkarlıq subyektləri ilə iş prinsiplərinin təkmilləşdirilməsinin vacibliyini qeyd edən nazir vergi administrasiyasının əsas vəzifələrindən birinin hər bir kateqoriyadan olan vergiödəyicilərinə fərdi yanaşmalar formalaşdırmaqdan ibarət olduğunu bildirib. İri vergiödəyiciləri ilə iş prinsipində geniş analitik təhlilə və risklərin qiymətləndirilməsi sisteminə əsaslanan siyasətin yürüdülməsinə, elektron auditin tətbiqi siyasətinə üstünlük verilməsinə, orta sahibkarlıq subyektlərinə münasibətdə "kölgə iqtisadiyyatı"nın elementlərinin aradan qaldırılmasına, kiçik sahibkarlara münasibətdə isə dürüst və şəffaf vergi uçotunun formalaşdırılmasının təmin olunmasına, sahibkarlıq subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə, xidmət sektorunun genişləndirilməsi və maarifləndirmənin aparılmasına üstünlük verilməli olduğu diqqətə çatdırılıb. Kiçik sahibkarlar arasında könüllü əməletmə səviyyəsini yüksəltmək məqsədilə onların təqdim etdiyi hesabatlılıq sisteminin sadələşdirilməsinə ehtiyac olduğu qeyd edilib.

Vergiödəyicilərinin hüquq və qanuni mənafelərinin daha etibarlı şəkildə müdafiə edilməsinin, vergi apellyasiya sisteminin təkmilləşdirilməsinin vacibliyini xüsusi olaraq vurğulayan M.Cabbarov bildirib ki, sahibkarların hüquqlarını qoruyan yeni və daha effektiv mexanizmlərin yaradılması istiqamətində araşdırmalar aparılıb və inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsi əsas götürülərək Azərbaycanda Vergi Ombudsmanı institutunun yaradılması qərara alınıb. Vergi inzibatçılığının rəqəmsallaşdırılması prosesinin davam etdiriləcəyi, vergi xidmətləri və vergi nəzarətində yeni innovativ texnologiyaların tətbiqi istiqamətində tədbirlərin daha da genişləndiriləcəyini qeyd edən nazir vergi əməkdaşlarının, xüsusilə audit sahəsində çalışanların bilik və bacarıqlarının artırılması, fəaliyyətinin qiymətləndirilməsi üçün yeni mexanizmin həyata keçirilməsinin vacibliyini də diqqətə çatdırıb.

Sonda M.Cabbarov 2019-cu ildə vergi orqanları qarşısında duran vəzifələrin icrasının təmin edilməsi, vergi orqanlarının fəaliyyətinin müasir tələblərə cavab verən səviyyədə qurulması, nazirliyin bütün struktur vahidlərinin və bölmələrinin mövcud potensialının bu vəzifələrin icrasına səfərbər edilməsi ilə bağlı konkret tapşırıqlar verib.

## Vüqar RƏHİMZADƏ: Prezident İlham Əliyevin regionlara hər səfəri xalqa xidmətin təzahürüdür

***❒ "Davamlı iqtisadi inkişaf, yüksək rifah dövlət siyasətinin əsasını təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarının əsasında bu tezis dayanır ki, həyata keçirilən siyasətin təməlində vətəndaş amili dayanır. İrəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi ölkədə yüksək abhavanı təmin etməklə yanaşı, xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir".***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə Tədbirlər Planını təsdiqləməsi, Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlardır: "Prezident İlham Əliyevin bu günlərdə Beyləqan rayonuna səfəri də bu tərkibdəndir. Səfər çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirak edən dövlətimizin başçısının ictimaiyyət nümayəndələri ilə görüşündə göstərdiyi səmimiyyət diqqətdən kənarda qala bilməz. Prezidentimizin rayon ictimaiyyətinin nümayəndələri ilə mehriban görüşünün, onlarla birgə "Azərbaycanım" mahnısını oxumasının ictimaiyyət tərəfindən necə rəğbətlə, yüksək əhval-ruhiyyə ilə qarşılandığı sakinlərin fikirlərindən də aydın görünür. Bu səmimiyyət bir daha belə bir reallığa işıq saldı ki, İlham Əliyev hər kəsin Prezidentidir, xalqa xidmət missiyasını yüksək səviyyədə, layiqincə yerinə yetirməklə daim çıxışlarında qarşıya qoyduğu "Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir" tapşırığının real həyatda ifadəsidir. Rayon sakinlərinin bildirdiyi kimi, vətəndaşlarla bir yerdə olmaq, onlara arxalanmaq, onlarla ünsiyyət yaratmaq, arzu və təkliflərinə, istəklərinə vaxtında cavab vermək qürurvericidir. Dövlət başçısı İlham Əliyevin rayon sakinləri qarşısında "Mən həmişə bu dəstəyə arxalanmışam, mənə güc verən sizin mənə olan inamınızdır" cavabı hakimiyyətin yeganə mənbəyinin xalq olmasının göstəricisidir. Prezidentimiz Azərbaycanın uğurlarından bəhs edərkən həmişə "insan amili, insan kapitalı" anlayışının mahiyyətini diqqətə çatdırır və bu tapşırığı verir ki, məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, xalqın xidmətçiləridir".

YAP Siyasi Şurasının üzvü açıqlamasında regional inkişaf proqramlarının uğurlu icrasını, İlham Əliyevin Sərəncamı ilə regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiqlənməsinin inkişafın davamlılığına geniş yol açmasını qeyd edib. Bu mühüm məqamı xüsusi vurğulayıb ki, yeni iş yerlərinin açılması yoxsulluğun aradan qaldırılması və məşğulluğun daha da artırılmasına öz müsbət təsirini göstərir. İstifadəyə verilən hər bir obyekt onlarla, yüzlərlə insanın işsizlik probleminin həllini təmin edir. Bu isə öz növbəsində, sosial müdafiənin gücləndirilməsi deməkdir.

V.Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin bölgələrin potensial imkanlarından səmərəli istifadə etmək məqsədilə təsdiqlədiyi dövlət proqramlarının uğurlu nəticələrinə söykənərək qeyd edib ki, bu gün paytaxt və bölgələr arasında fərq tamamilə aradan götürülüb: "Hazırda Azərbaycanın hər rayonu, kəndi, qəsəbəsi inkişaf, tərəqqi dövrünü yaşayır. Bütün rayonlar arasında sağlam rəqabət gedir. Prezident İlham Əliyevin açıqladığı statistikaya əsasən ötən il Azərbaycanın bölgələrinə 24 səfər edib. Bu səfərlər zamanı həm işlərə nəzarət etmək üçün imkan yaranır, həm də yerlərdə vətəndaşlarla görüşərək onları narahat edən problemlərin həlli istiqamətində göstərişlər verilir. Rayonların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı bir çox sərəncamlar imzalanıb. Bu sərəncamlar bölgələrimizdə yüksək nəticələrə yol açıb. İnsanların rahat, yüksək rifah şəraitində yaşaması prioritet məsələlərdəndir".

V.Rəhimzadə vurğulayıb ki, xalq-iqtidar birliyi, eyni zamanda, vətəndaş amilinə verilən dəyərdən irəli gələrək qarşıya qoyulan tapşırıqların uğurlu icrası cəmiyyətdə yüksək ab-havanın yaranmasını şərtləndirir. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" vədini ölkə Prezidenti İlham Əliyev atdığı addımlarla, bütün fəaliyyəti ilə təsdiqləyir.

## Ağdamın sosial-iqtisadi inkişafında yeni mərhələ uğurla davam edir

**❒ Cəbhə bölgəsində yerləşməsinə, ərazisinin üçdə ikisi işğal altında olmasına baxmayaraq Ağdamın sosial-iqtisadi inkişaf göstəriciləri ildən-ilə yaxşılaşır, ərazidə məskunlaşmış məcburi köçkünlərin problemləri ardıcıl həllini tapır, əhalinin gündəlik tələbatını ödəmək, humanitar sahələrin ahəngdar fəaliyyətini təmin etmək üçün zəruri tədbirlər, müxtəlif layihələr gerçəkləşdirilir.**





Bütün bunlar barədə Ağdam Rayon İcra Hakimiyyəti Başçısı yanında Şuranın 2018-ci ilin sosial-iqtisadi yekunlarına, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin illik iclasında cari il üçün müəyyən edilmiş hədəflərin müzakirəsinə həsr olunmuş hesabat yığıncağında ətraflı söhbət açıldı.

Toplantını giriş sözü ilə açan Ağdam RİH-in başçısı Vaqif Həsənov hökumətin ötən ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyevin çıxışında əksini tapmış önəmli məsələlər barədə məlumat verdi, ölkə rəhbərinin regional inkişafla bağlı qarşıya qoyduğu vəzifələri, verdiyi tapşırıqları rayon fəallarının nəzərinə çatdırdı.

Sonra Vaqif Həsənov 2018-ci ildə rayonda sosial-iqtisadi inkişafın yekunları barədə RİH-in hesabatını yığıncaq iştirakçılarına təqdim etdi. Rayon rəhbəri indiki ümumi durumu dəyərləndirərək bildirdi ki, işğaldan ötən 26 ildə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin müstəsna diqqət və qayğısı ilə həyata keçirilən ardıcıl tədbirlər, regional inkişaf, köçkünlərin problemlərinin həllinə yönəlmiş dövlət proqramları Ağdamın inkişafının ümumrespublika səviyyəsinə çatmasında önəmli rol oynamışdır. Ötən dövrdə dövlətin fəal dəstəyi ilə əldə olunmuş uğurlar bu gün mövcud imkanlardan geniş təşəbbüskarlıqla istifadə etməyə imkan yaratmışdır. Odur ki, indi rayonun ümumi idarəçiliyində problemin ardınca getmək deyil, onun qabaqlanması və yerli imkanlardan daha səmərəli istifadə etmək xəttinə üstünlük verilir.

Hesabatda göstərildi ki, Ağdam RİH-in rəhbərliyi ilə rayonun sosial-iqtisadi inkişaf göstəriciləri əksər sahələrdə illik proqnozları üstələmişdir. İlin ən yaddaqalan hadisəsi isə payızda dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rayona səfəri, muğam yurdu Ağdama Heydər Əliyev Fondunun misilsiz hədiyyəsi olan Muğam mərkəzinin, "Azərxalça" ASC-nin Ağdam filialının və Qarabağ Atçılıq Kompleksinin, 29 min nəfər əhalini əhatə edən 1 qəsəbəni, 10 kəndi və 3 məcburi köçkün qəsəbəsini birləşdirən 25,3 kilometrlik Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun istifadəyə verilməsi şənliklərində iştirakları, xeyir-dualarını vermələri, rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşmələri olmuşdur. Səfərdən sonra ölkə rəhbərinin sərəncamı ilə cəbhə xəttində düşmən hücumlarından ziyan çəkmiş evlərin bərpa olunması və Birinci Yüzbaşılı kənd tam orta məktəbinin tikintisi üçün vəsait ayrılmışdır ki, bu da cənab İlham Əliyevin ağdamlılara daha bir töhfəsi oldu.

Ötən il rayonun sosial-iqtisadi inkişaf uğurları barədə söz açan məruzəçi qeyd etdi ki, taxılçılar 14 min hektardan 52 min tondan çox məhsul əldə etmiş, məhsuldarlıq 37,1 sentnerə çatdırılmışdır. Keçən mövsümdə 98,5 min ton tərəvəz, 5,9 min ton kartof, 20 min tondan artıq şəkər çuğunduru yetişdirilmişdir. Pambıqçılar 5,8 min tondan çox məhsul istehsal etsələr də, bu, rayonun imkanları baxımından aşağı göstəricidir. Odur ki, bu il əkinləri genişləndirərək 2 min 595 hektara çatdırmaq üçün tədbirlər görülür. Kümçülər 2018-ci ildə 17 tondan çox barama əldə etmişlər. Bu, ötən illə müqayisədə 3,9 ton çoxdur.

İl ərzində tikinti-quruculuq, bərpa-abadlıq işləri uğurla davam etdirilmiş, rayonun xəritəsinə xeyli yeni obyekt düşmüşdür. İmamqulubəyli kəndində tibb məntəqəsi istifadəyə verilmiş, Quzanlı qəsəbəsində Ruhi Əsəb Dispanseri əsaslı təmir edilmişdir. Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yolunun tikintisi başa çatdırılmış, Kolqışlaq-Mirəşəlli-Çıraqlı yolunun çəkilişinə başlanmışdır. Hazırda Quzanlı qəsəbəsində Boks və Taekvando məktəblərinin, Polis şöbəsinin, Prokurorluğun, Ağdam Elektrik Şəbəkəsinin yeni inzibati binalarının tikintisi üçün torpaq sahələri ayrılmış və bu istiqamətdədir layihələndirmə işləri aparılır.

2018-ci ildə əhalinin həyat şəraitinin yaxşılaşdırılması, fasiləsiz elektrik enerjisi, təbii qaz və su ilə təminatının ödənilməsi, göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlər görülmüşdür. Artıq bütün məntəqələrdə mavi qaz yanır. Ötən il yeni avtomat telefon stansiyaları da istifadəyə verilmişdir. Ölkə başçısının sərəncamları ilə son 2 ildə 30 artezian quyusu qazılmış, 43 yeni quyunun qazılması yekunlaşmaq üzrədir. Keçən il "Ağdam nəqliyyat" MMC yaradılmış və işğaldan sonra ilk dəfə bütün yaşayış məntəqələrinə marşurutlar açılmış, qonşu rayonlara marşurutlar 29-a çatmışdır.

2018-ci ildə RİH-ə 1447 müraciət daxil olmuş, əksəriyyətinə vaxtında baxılaraq əsasən müsbət həll edilmişdir. RİH başçısı qəbullarda və səyyar görüşlərdə 5 mindən çox sakini dinləmiş, problemlərinin həllinə kömək etmişdir.

Toplantıda mövcud nöqsanlar da nəzərdən keçirildi, onların həlli yolları göstərildi.

Azərbaycan Prezidenti Administrasiyasının məsul işçisi Əflatun Rufiyev yığıncaqda çıxış edərək cari ildə ağdamlılara daha böyük uğurlar arzuladı.

Sonda qəbul edilmiş qərarda 2019-cu ilin önəmli vəzifələri əksini tapdı.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

## Salyan: ötən ilin uğurlu nəticələri

***❒ Salyan Rayon İcra Hakimiyyətində Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələrlə əlaqədar rayonun 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan hesabat yığıncağı keçirilib.***




Salyan RİH-in başçısı Sevindik Hətəmov tədbirdə çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın hər yerində olduğu kimi, Salyan rayonunun da iqtisadiyyatı inkişaf etmiş, abadlıq və quruculuq işləri davam etdirilmişdir.

Ötən il rayonda tikinti-quruculuq, abadlıq işlərinin həcmi əvvəlki illərlə müqayisədə daha da genişlənmişdir. Belə ki, Salyan şəhərində 34 çoxmənzilli binanın fasad hissəsi və kommunikasiya xətləri əsaslı, 5 kommunal binanın dam örtüyü, 14 binanın fasadı, su və kanalizasiya sistemi əsaslı təmir edilmişdir. Bundan əlavə, ümumi sahəsi 1750 kvadratmetr olan 2 binanın dam örtüyü dəyişdirilmişdir.

Şəhərin 20 Yanvar, Nizami, Ənnağı Hüseynov, Aslan Hüseynov, Hacı Zeynalabdin Tağıyev, Taleh Davudzadə, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, Əli Zeynalov, Əliağa Kürçaylı, Elçin İmanov, Aşıq Pənah küçələrində abadlıq-quruculuq işləri tamamlanmışdır.

Natiq sonra qeyd edib ki, Azərbaycan Prezidentinin 2 oktyabr 2018-ci il tarixli "Salyan rayonunun Arbatan–Marışlı–Seyidsadıqlı–Quyçu avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncamı ilə avtomobil yolunun tikintisinin tamamlanması məqsədi ilə 4,2 milyon manat vəsait ayrılmışdır. Tikinti işləri başa çatdırılmış, 13,1 kilometr uzunluğunda Arbatan-Marışlı-Seyidsadıqlı-Quyçu kəndlərini birləşdirən kəndarası avtomobil yolu istifadəyə verilmişdir. Dövlət başçısının digər sərəncamı ilə Şirvan-Salyan avtomobil yolunun tikintisinin davam etdirilməsi üçün 10 milyon manat vəsait ayrılmışdır.

2018-ci ildə investorlarla aparılmış görüşlər, sahibkarlığın inkişafı üçün yaradılmış münbit şərait nəticəsində rayonda özəl investisiya hesabına ümumi dəyəri 169,7 milyon manat olan 56 kənd təsərrüfatı, sənaye, iaşə, emal, istehsal sahələri üzrə layihələrin icrası davam etdirilmişdir. Artıq bir çox sahələr üzrə işlər başa çatdırılmışdır.

2018-ci ildə rayonda kənd təsərrüfatı məhsullarının ümumi həcmi müvafiq dövrə nisbətən 3,5 faiz artaraq 137 milyon 947 min manat, poçt və rabitə xidmətinin həcmi 21,8 faiz artaraq 741 min manat, pərakəndə satış dövriyyəsi 6,7 faiz artaraq 258 milyon 201 min manat, əhaliyə göstərilən pullu xidmət 2,8 faiz artaraq 63 milyon 325 min manat, sənaye məhsulunun ümumi həcmi 18 faiz artaraq 94 milyon 421 min manat olmuşdur.

Ötən il rayonda 16813 hektar taxıl sahəsindən 54294 ton olmaqla, hər hektardan 32,3 sentner məhsul toplanmışdır. Belə ki, 8465 hektar arpa sahəsindən 25131 ton olmaqla, 29,7 sentner, 8348 hektar buğda sahəsindən 29163 ton olmaqla, 34,9 sentner məhsul toplanmışdır. 2018-ci ildə 7055 hektar torpaq sahəsində pambıq əkini aparılmış, 10356,3 ton məhsul toplanmış, nəzərdə tutulan plan 73,4 faiz yerinə yetirilmiş, məhsuldarlıq hər hektara 14,7 sentner olmuşdur.

Qeyd etmək lazımdır ki, rayon əhalisinin sosial problemlərinin həll edilməsi daim diqqət mərkəzində saxlanılır. Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ildə 992-si daimi olmaqla 18936 yeni iş yeri yaradılmışdır. Belə ki, "Ünvanlı sosial yardım haqqında" qanununa uyğun olaraq 878 ailənin 3606 nəfər üzvünə sosial yardım verilmişdir.

Hesabat dövründə rayonun təhsil müəssisələrində tədrisin maddi bazanın möhkəmləndirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Bəşirbəyli kəndində Pambıqkənd kənd tam orta məktəbi üçün 6 sinif otağından ibarət 120 yerlik yeni korpus tikilmiş, Xurşud kənd ümumi orta məktəbində istilik sistemi quraşdırılaraq istifadəyə verilmişdir. Rayonda əhaliyə səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində xeyli iş görülmüşdür.

Yığıncaqda Azərbaycan Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Əlibaba Əliyev, Milli Məclisin deputatları Əliağa Hüseynov və Fəzail Ağamalı çıxış edərək Salyan rayonunun inkişafı ilə bağlı sosial-iqtisadi sahələrdə yüksək uğurların əldə olunmasından, aparılan genişmiqyaslı quruculuq işlərinin nəticəsində rayonun simasının son illər dəyişərək yeni, müasir görkəm almasından, irihəcmli infrastruktur layihələrinin həyata keçiriliməsindən bəhs etmişlər.

Sonda hesabat yığıncağında müzakirə olunan məsələyə dair qərar və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilmişdir.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

***birbaşa tabeliyində olan təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların 2019-cu ilin may-dekabr ayları ərzində yeməklə təminatı ilə bağlı xidmətlərin satınalınması məqsədilə***

### AÇIQ TENDER ELAN EDİR

Təhsilalanların yeməklə təchizatı ilə bağlı xidmətlər, adları və ünvanları aşağıda göstərilən 51 təhsil müəssisəsini əhatə edəcəkdir:

| Sıra N-si | Təhsil müəssisəsinin adı | Yerləşdiyi ünvan |
|---|---|---|
| 1 | Fizika-Riyaziyyat və İnformatika Təmayüllü Lisey | Bakı şəhəri, S.Dadaşov küçəsi 555-ci məhəllə |
| 2 | S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası | Bakı şəhəri, F.Yusifov küçəsi 39 |
| 3 | Kimya-Biologiya Təmayüllü Respublika Liseyi | Bakı şəhəri ,Ş.Mirzəyev küçəsi 53 |
| 4 | Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyası | Bakı şəhəri, H.Cavid prospekti 506-cı məhəllə |
| 5 | S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya | Bakı şəhəri, Qaraçuxur qəsəbəsi |
| 6 | A.S.Makarenko adına Humanitar Fənlər Təmayüllü Respublika İnternat Tipli Gimnaziya | Bakı şəhəri, "Şimal DRES" qəsəbəsi, L.Starçuk küçəsi 1 |
| 7 | 10 nömrəli Sanatoriya Tipli İnternat Məktəbi | Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsi, Hüseynbala Əliyev küçəsi 18A |
| 8 | 8 nömrəli Sanatoriya Tipli İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, R.Axundov küçəsi 1 |
| 9 | Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün 1 nömrəli Tam Orta İnternat Məktəbi | Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 25 |
| 10 | Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün 2 nömrəli Ümumi Orta İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Şərq küçəsi 29 |
| 11 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 2 nömrəli Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, H.Məmmədov küçəsi 56 |
| 12 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Nizami rayonu, M.Şərifli küçəsi 3 |
| 13 | Sağlamlıq İmkanları Məhdud və Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün 4 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, H.Məmmədov küçəsi 35 |
| 14 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 5 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Nərimanov rayonu, Fətəli Xan Xoyski prospekti 77 |
| 15 | E.Mirzəyev adına Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 6 nömrəli Respublika Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi, Dənizkənarı küçəsi 1 |
| 16 | E.Quliyev adına Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 9 nömrəli Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Qaradağ rayonu, Sahil qəsəbəsi, E.Quliyev küçəsi 24 |
| 17 | 11 nömrəli inteqrasiya təlimli internat məktəbi | Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Ü.Hacıbəyov küçəsi 12 |
| 18 | Nizami rayonu 3 nömrəli Xüsusi Ümumtəhsil Məktəbi | Bakı şəhəri, Nizami rayonu,Şərifli küçəsi 3 |
| 19 | Nəsimi rayonu 11 nömrəli Xüsusi Təhsil Məktəbi | Bakı şəhəri, Nəsimi rayonu, Salatın Əsgərova küçəsi 138 |
| 20 | Nəsimi rayonu 268 nömrəli Xüsusi Təhsil Məktəbi | Bakı şəhəri, Nəsimi rayonu,Süleyman Rüstəm küçəsi 38 |
| 21 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 12 nömrəli Xüsusi İnternat Məktəbi | Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi 43A |
| 22 | Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Reabilitasiya Mərkəzi | Bakı şəhəri, Sabunçu rayonu, Bilgəh qəsəbəsi, 20-ci Qurultay küçəsi 3 |
| 23 | Sumqayıt Şəhər İnternat Tipli Gimnaziya | Sumqayıt şəhəri, Mehdi Hüseynzadə küçəsi 16 |
| 24 | Sumqayıt Şəhəri general M.Əsədov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Sumqayıt şəhəri, 9-cu mikrorayon 11v |
| 25 | Sumqayıt Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Sumqayıt şəhəri, 5-ci mikrorayon C.Məmmədquluzadə küçəsi |
| 26 | Gəncə Şəhər İnternat Tipli Xarici Dillər Təmayüllü Gimnaziya | Gəncə şəhəri, Bağbanlar küçəsi 18 |
| 27 | Gəncə Şəhər Paşa Hüseynov adına Futbol Təmayüllü İnternat Tipli Gimnaziya | Gəncə şəhəri, H.Əliyev prospekti 208 |
| 28 | Gəncə Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Gəncə şəhəri, Gəncə prospekti Nizami küçəsi 235 |
| 29 | Goranboy Şəhər R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Goranboy şəhəri, M.Məhərrəmov küçəsi 23 |
| 30 | Şəki Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Şəki şəhəri, M.F.Axundov prospekti 164 |
| 31 | Mingəçevir Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Mingəçevir şəhəri, Ü.Hacıbəyov küçəsi 1 |
| 32 | Balakən rayonu İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Balakən şəhəri, H.Əliyev küçəsi 77 |
| 33 | Salyan Şəhər A.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Salyan şəhəri, H.Z.Tağıyev küçəsi 62 |
| 34 | Siyəzən Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Siyəzən şəhəri, T.İsmayılov küçəsi 2 |
| 35 | Neftçala Şəhər M.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Neftçala şəhəri, Ü.Hacıbəyov küçəsi |
| 36 | Lerik Şəhər V.İbrahimov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Lerik rayonu, A.Əsədullayev küçəsi 9 |
| 37 | Zaqatala Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Zaqatala şəhəri, Saleh Qocayev küçəsi 1A |
| 38 | Bərdə Şəhər R.N.Musayev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Bərdə şəhəri ,M.Müşfiq küçəsi 3 |
| 39 | Göyçay Şəhəri S.Vurğun adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Göyçay şəhəri, R.Rza küçəsi 130 |
| 40 | Tovuz rayonu İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Tovuz rayonu, Qovlar qəsəbəsi, Vağzal küçəsi |
| 41 | Lənkəran Şəhər Xarici Dillər Təmayüllü Gimnaziya | Lənkəran şəhəri, Z.Əliyeva küçəsi 94 |
| 42 | Lənkəran Şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya | Lənkəran şəhəri, Füzuli küçəsi 125 |
| 43 | Şamaxı rayonu Texniki, Humanitar və Təbiət fənləri Təmayüllü Gimnaziya | Şamaxı şəhəri, M.Ə.Rəsulzadə küçəsi 25 |
| 44 | Ağdaş rayonu M.Şeyxzadə adına İnternat Tipli Texniki, Humanitar və Təbiət fənləri Təmayüllü Gimnaziya | Ağdaş şəhəri, H.Əliyev prospekti 98 |
| 45 | Füzuli rayonu M.Xəzani adına Musiqi Təmayüllü Gimnaziya | Füzulu rayonu,Əhmədbəyli kəndi |
| 46 | Biləsuvar Şəhər Texniki Fənlər Təmayüllü Lisey | Biləsuvar şəhəri, Mübariz İbrahimov küçəsi 1 |
| 47 | Quba şəhəri Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbi | Quba rayonu, Zərdabi qəsəbəsi |
| 48 | Rüfət Kəlibiyev adına Xınalıq Tam Orta İnternat Məktəbi | Quba rayonu, Xınalıq kəndi |
| 49 | Mingəçevir Şəhəri Uşaq və Ailələrə Dəstək Mərkəzi | Mingəçevir şəhəri, N.Nərimanov prospekti 119 |
| 50 | Quba Peşə Liseyi | Quba şəhəri,C.Hacinski küçəsi 1 |
| 51 | Quba Xüsusi Peşə Məktəbi | Quba şəhəri,Y.Qasımov küçəsi 1 |

**Yuxarıda adları çəkilən təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatındakı təhsilalanların yeməklə təchizatı 14 çeşiddə gündəlik menyulara uyğun sıra ardıcıllığı gözlənilməklə həyata keçirilməlidir.**

**Tender təkliflərinin qiymətləndirilməsi iddiaçıların təhsil müəssisələrində təhsilalanların yeməklə təchizatı üzrə xidmətlərin keyfiyyətli və standartlara uyğun olaraq yerinə yetirilməsinə təminat kimi, aidiyyəti sənədləri (sertifikat və sair) təqdim etdiyinə, bu sahədə təcrübəsinə və ixtisaslaşmış kadrların olmasına, maddi-texniki bazasının vəziyyətinə, maliyyə imkanlarına, maliyyə resurslarının qaneedici olmasına, etibarlılığına, tenderə təqdim olunmuş sənədlərinin tamlığına və dürüstlüyünə, həmçinin tender təklifinin qiymətinə görə bal sistemi ilə həyata keçiriləcəkdir.**

**Tenderdə iştirak etmək istəyənlər Azərbaycan Respublikası Təhsil Nazirliyinə**
**VÖEN-1500046011**
**H\ h-AZ30CTRE00000000000002168501**
**Büdcə təsnifatı-7/142340**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod-210005**
**M\ h- AZ41NABZ01360100000000003944**
**VÖEN-1401555071**
**S.W.İ.F.T. BİK CTREAZ22**
**Fond- 7**
**büdcə gəlirlərinin təsnifatı -142340 "Sair daxilolmalar" 1000 (bir min) manat məbləğdə iştirak haqqını ödədikdən sonra tenderin əsas şərtlər toplusunu tender komissiyasının əlaqələndiricisi İradə Mirzəhmədovadan ala bilərlər (Bakı, Xətai prospekti 49, 308-ci otaq, telefon-(012) 599-11-55, daxili 5249, elektron ünvan- m.irada@edu.gov.az).**

**Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İştirakçılar tender təklifləri istisna olmaqla ixtisas uyğunluğu barədə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

**- tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə və ya məktub). Müraciətdə iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri barədə məlumatlar öz əksini tapmalıdır;**

**- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;**

**- hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və nizamnaməsinin notarial qaydada 2019-cu ildə təsdiq olunmuş surəti;**

**- vergi borcunun olub-olmaması haqqında vergi orqanları tərəfindən verilmiş arayış;**

**- icbari sosial sığorta ayırmaları üzrə borcun olub-olmaması haqqında vergi orqanları tərəfindən verilmiş arayış;**

**- iddiaçının son bir ildə maliyyə vəziyyəti barədə bank arayışı və bank rekvizitləri;**

**- son bir ildə maliyyə vəziyyətini əks etdirən bəyannamənin surəti;**

**- son iki ildə təhsil müəssisələrində mövcud qanunvericiliyə uyğun dövlət təminatında olan təhsilalanların yeməklə təchizatı sahəsində fəaliyyəti barədə (yeməklə təchiz olunmuş təşkilatların siyahısı göstərilməklə) ətraflı məlumat;**

**- maddi-texniki bazası və kadr potensialı haqqında ətraflı məlumat (məlumatda təhsilalanların yeməklə təchizatı ilə bağlı xidmətlərin görülməsi üçün potensial imkanları (şəbəkə) öz əksini tapmalıdır);**

**- xidmətlərin göstərilməsi zamanı ictimai iaşə sistemində qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə Beynəlxalq Standartlaşdırma Təşkilatı tərəfindən qəbul olunmuş İSO 22000:2005 (HACCP sistemi) beynəlxalq statuslu standartlara (prinsiplərə) riayət edilməsi, bununla əlaqədar müvafiq sertifikatın mövcudluğu haqqında geniş məlumat (sertifikat olduğu halda təqdim edilməklə);**

**- SƏTƏM (sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühit) siyasətinə riayət olunması barədə məlumat;**

**- beynəlxalq standartlaşdırma təşkilatları tərəfindən qəbul olunmuş qida məhsullarının təhlükəsizliyinin idarəetmə sistemlərinə dair proqramlar üzrə təlim keçən işçilər barədə məlumat (arayış);**

**- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı barədə məlumat;**

**- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyətinin dayandırılmaması haqqında məlumat;**

**- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;**

**- subpodratçı qismində başqa müəssisələrdən istifadə olunub-olunmayacağı barədə məlumat. Əgər istifadə olunacaqsa həmin müəssisə ilə tender iştirakçısı arasında bağlanılmış niyyət protokolunun və ya digər hüquqi sənədin surəti. Submüqavilənin bağlanılması və onlarda hər hansı bir dəyişikliyin edilməsi satınalan təşkilatın yazılı razılığı ilə olmalıdır.**

**Göstərilən sənədlər (tender təklifləri istisna olmaqla) tələb olunan qaydada hazırlanıb, 2019-cu il martın 28-dək tender komissiyasına təqdim olunarsa, həmin iştirakçılar iddiaçı kimi qeydə alınacaqlar.**

**İddiaçılar tender təkliflərini (təklifin təqdimat vərəqəsi, qiymət təklifi və təklifin bank təminatı) tenderin əsas şərtlər toplusunun tələblərinə uyğun olaraq hazırlayaraq ikiqat bağlı zərfdə (əsli və surəti) 10 aprel 2019-cu il saat 17-00-a kimi tender komissiyasına təqdim etməlidirlər. Təklif zərflərinin bağlanan hissəsi iddiaçı tərəfindən imzalanıb möhürlənməli, satınalan təşkilatın,iddiaçının adı və ünvanı qeyd olunmalıdır. Təkliflər, zərflər açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır.**

**İddiaçılar tender təklifləri ilə birlikdə təklifin 1%-i həcmində, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olan bank təminatını təqdim etməlidirlər. Satınalan təşkilatın müəyyən etdiyi vaxtdan sonra təqdim olunan tender təklifləri açılmadan malgöndərənə (podratçıya) qaytarılır və onun tenderdə iştirakına yol verilmir**

**Açıq tender proseduru 11 aprel 2019-cu il saat 12.00-da iddiaçıların və ya onların səlahiyyətli nümayəndələrinin iştirakı ilə Təhsil Nazirliyinin iclas zalında (Bakı şəhəri, Xətai prospekti 49) keçiriləcəkdir.**

**Açıq tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.**

**Tender iddiaçılarının "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklifləri təqdim etmələri onların tender təkliflərinin kənarlaşdırılmasına səbəb olacaqdır.**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti əmək haqqı sisteminin, aidiyyatı avadanlıqların və lisenziyaların satınalınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Bakı şəhəri, Ceyhun Hacıbəyli küçəsi 2-ci döngə, 2B nömrəli ünvana müraciət edə bilərlər. Əlaqələndirici şəxs -Tural Quluzadə, telefon- (077) 277-32-60.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 19 fevral 2019-cu il saat 17.00-dan gec olmamaq şərti ilə yuxarıdakı ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri, 20 fevral 2019-cu il saat 15.00-da Bakı şəhəri, Ceyhun Hacıbəyli küçəsi 2-ci döngə, 2B nömrəli ünvanda açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

## İctimai Televiziya və Radio Yayımları Şirkəti

### AÇIQ TENDER ELAN EDİR

Tender 1 lot üzrə keçirilir.

Lot-1 Şirkətin rebrendiqi ilə əlaqədar olaraq nəqliyyat vasitələrinin üzərindəki əvvəlki loqonun sökülüb yeni loqonun vurulması və şirkətin girişlərində yeni loqonun quraşdırılması işlərinin satınalınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün 50 manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 241 nömrəli (əlaqələndirici şəxs- Ramil Əliyevdən, telefon- 012 430 13 16) ünvandan ala bilərlər.

Bank- "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı
Kod- 200112
VÖEN- 9900003611
M/h - AZ37NABZ 01350100000000001944
S.W.İ.F.T.- AIIBAZ2X
Adı - İctimai Televiziya və Radio Yayımları Şirkəti
H/h -AZ11AIIB 33010019441102259111
VÖEN- 2000435761

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 7 mart 2019-cu il saat 17.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərflərdə 18 mart 2019-cu il saat 17.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 241 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 19 mart 2019-cu il saat 11.00-da Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi 241 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tender zərflərinin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi

### Qlobal Fondun İİV Layihəsi çərçivəsində CD-4 analizləri üçün tələb olunan reaktivlərin və istismar materiallarının satınalınması ilə əlaqədar

### AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1.CD-4 analizləri üçün tələb olunan reaktivlərin və istismar materiallarının satınalınması.

Mallarla təchiz olunma müddəti – 2019-cu il ərzindədir.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı, Nərimanov rayonu, C.Hacıbəyli küçəsi 16 və 18 nömrəli ünvanlarda yerləşən Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsindən (əlaqələndirici şəxs – Cəfərov Şamil Seyfulla oğlundan, telefon- 012-567-48-86 (daxili 21) ala bilərlər.

İştirak haqqı tələb olunmur

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).Üstünlük Azərbaycan dilinə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

